RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 259 (8575) CÜMƏ AXŞAMI, 10 dekabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Qardaş qardaşın yanındadır

## Azərbaycan və Türkiyə birlikdə güclüdürlər

**Müasir dünyada Azərbaycan və Türkiyə kimi iki elə ölkə yoxdur ki, bir-biri ilə bu qədər yaxın olsun. Məlum olduğu kimi, xalqları qardaşlaşdıran dil və dini-mənəvi dəyərlərdir. Amma elə qardaş ölkələr var ki, onlar arasında qarşılıqlı münasibətlər bu və ya digər səbəbdən düşmənçilik həddinə gedib çıxır. Hazırda bir sıra silahlı münaqişələrdə bir-birinə qarşı duran tərəflərin ya dil, ya din qohumluğu onların düşmən mövqelərdə dayanmasının qarşısını almır. Qardaş xalqlar fərqli maraqları ucbatından bir-birinin qanını axıdır, alovlanmış münaqişəyə son qoymaq naminə, azacıq da olsa, güzəştə getmir.**

Azərbaycan-Türkiyə qardaşlığı isə eyni qandan olan xalqlara nümunə göstərilə bilər. Hətta iki ölkənin xalqlarının əsrlərboyu coğrafi baxımdan bir-birindən aralı düşməsinə, elementar qarşılıqlı münasibətlərdən məhrum olmasına baxmayaraq, onlar qardaş olduqlarını heç vaxt unutmamış, kiçicik fürsət düşən kimi qol-boyun olmuşlar. 2018-ci ildə Azərbaycan milli müstəqilliyini elan edəndə osmanlı dövləti İkinci Dünya müharibəsində iştirak etməsinə baxmayaraq, "olum, ya ölüm" dilemması qarşısında qalmış qardaşına kömək əli uzatmış, müsəlman Şərqində ilk demokratik respublikanı boğmağa calışan erməni-bolşevik qüvvələrinin bəd niyyətini gözündə qoymuşdur. O vaxt Nuru Paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusu Azərbaycanı tək qoymayıb, Xalq Cümhuriyyətini xilas etmək vəzifəsini üzərinə götürdü və Azərbaycan-Türkiyə qardaşlığı tarixinə şərəfli səhifə yazdı. Çox keçməmiş osmanlı dövləti İkinci Dünya müharibəsində məğlub oldu və ardınca imperialist dövlətlər Anadolu türklərini diz çökdürmək, onların torpağını parçalamaq niyyətinə düşdü. Lakin imperialistlərin cızdığı planlar Anadoludakı türk xalqının polad iradəsi ilə altüst oldu. Qazi Mustafa Kamal Atatürkün rəhbərlik etdiyi milli azadlıq hərəkatı (1919-1922) vüsət aldı, nəticədə türk torpağını bölməyi hədəfləyən mənfur düşmənlər geri çəkilmək məcburiyyətində qaldılar. O vaxt Azərbaycan çətin vəziyyətə düşmüş qardaşını tək qoymadı, milli azadlıq hərəkatını zəfərlə başa çatdırmaq naminə Türkiyəyə əlindən gələn köməyi etdi.

Azərbaycan 1991-ci ildə milli müstəqilliyini bərpa etdikdən sonra iki qardaş ölkə arasında münasibətlər keyfiyyətcə yeni xarakter aldı. Artıq Azərbaycan-Türkiyə əlaqələri iki müstəqil dövlət arasında davamlı olaraq möhkəmlənən hərtərəfli əməkdaşlıq kimi özünü göstərməyə başladı. Atatürkün vaxtilə səsləndirdiyi "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamı adi şüar olmayıb, real məzmun kəsb etdi. Öz növbəsində Ulu Öndər Heydər Əliyev Azərbaycanla Türkiyəni "Bir millət, iki dövlət" kimi səciyyələndirərək ikitərəfli münasibətlərin gələcək istiqamətini müəyyənləşdirdi.

Ötən dövrdə iki qardaş ölkə arasında əməkdaşlıq böyük məsafə qət etmişdir. Bakı və Ankara istisnasız olaraq bütün sahələrdə qarşılıqlı əlaqələri dərinləşdirmək üçün maksimum səy göstərmişdir. Eyni zamanda Bakı və Ankara istər regional, istərsə də beynəlxalq problemlərə münasibətdə eyni mövqe nümayiş etdirmişdir. Türkiyə Azərbaycan ərazisində beynəlxalq inkişaf layihələrinin, xüsusilə neft-qaz müqavilələrinin reallaşdırılmasına qoşulmuşdur. 2006-cı ildə işə düşmüş Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri Gürcüstan və Türkiyənin ərazisindən keçərək Azərbaycan "qara qızıl"nı dünya bazarına çıxarmışdır. Bir ildən sonra Bakı-Tbilisi- Ərzurum qaz kəməri istifadəyə verilmişdir. 2017-ci ildə daha bir regional inkişaf layihəsi - Bakı-Tbilisi-Qars dəmir yolu işə düşmüşdür.

*Ardı 4-cü səh.*

## Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıdakı hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilsin:

Həşimov Polad İsrayıl oğlu - general-mayor (ölümündən sonra)

Mirzəyev İlqar Anzor oğlu - polkovnik (ölümündən sonra)

Hüseynov İbad Mövsüm oğlu - ehtiyatda olan baş çavuş.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2020-ci il*

## İlham ƏLİYEV: "İtaliya Azərbaycanın yaxın dostudur"



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi, Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın həmsədri Manlio Di Stefanonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Sizin ölkənizə çox uğurlu səfərim xatirimdədir. Qonaqpərvərliyinizə görə bir daha təşəkkür edirəm. Səfər məndə olduqca müsbət təəssürat yaratmışdır. Səfər zamanı imzalanmış sənədlər, əlbəttə ki, bizim tərəfdaşlığımızı gücləndirəcəkdir.

*Ardı 2-ci səh.*

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana rəsmi səfərə gəlib



**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dekabrın 9-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Ramiz Həsənov və digər rəsmi şəxslər qarşıladılar.

**◆ Prezidentə yazırlar**

## "Sizin sayənizdə biz təkcə döyüş meydanında deyil, informasiya müharibəsində də qalib gəldik"

Azərbaycan vətəndaşlarından, xaricdə yaşayan soydaşlarımızdan, eləcə də qardaş Türkiyədən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məktublar gəlməkdə davam edir. Onlar Vətən müharibəsində qazandığımız tarixi Zəfərə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirirlər.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.

ABŞ-ın Hyuston şəhərindən **Samir Novruzov** yazır: "Hörmətli və əziz Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev, Laçının azad olunması münasibətilə Sizi təbrik edirəm. Siz Azərbaycan xalqını zirvələrə ucaltdınız. Müharibə dövründə biz hamımız bir olduq və sonda ölkəmizin ərazi bütövlüyünü təmin etdik. Siz Azərbaycan tarixinə qızıl hərflərlə yeni şanlı və qürurlu səhifə yazdınız, "Qarabağ Azərbaycandır!" şüarını həyata keçirdiniz. Cənab Prezident, biz Sizinlə fəxr edirik. Yaşasın Azərbaycan xalqı, yaşasın Azərbaycan dövləti!"

Türkiyənin İstanbul şəhərindən **İsmail Çağlıyan:** "Müzəffər Ali Baş Komandan, cənab Prezident, bütün türk xalqlarına yaşatdığınız bu mübarək Zəferinizə görə Sizi və qardaş Azərbaycan xalqını təbrik edirik. Allah-Təala Sizi qorusun! Yaşasın əbədi Azərbaycan! Qəlbimiz daim  Sizlərlə döyünür.

*Ardı 3-cü səh.*



## Yoluxmanın yüksək həddi sərt karantinin tətbiqini şərtləndirdi

**Ötən ilin bu vədələrindən etibarən Çinin Uhan şəhərindən yayılmağa başlayan yeni növ koronavirus "COVID-19" infeksiyası demək olar ki, Yer üzünü əsarəti altına alıb.**

Artıq dünyada COVID-19-a yoluxanların sayı sürətlə 70 milyona yaxınlaşır, pandemiya qurbanlarının sayı isə 1,5 milyondan çoxdur. Son günlər ölkələr üzrə koronavirusa yoluxma halları daha da artmaqdadır.

Digər ölkələrdə olduğu kimi, Azərbaycanda da son zamanlar bu infeksiyaya yoluxma sayı kəskin artıb. Paralel olaraq, xəstəxanalarda müalicə alan aktiv xəstələrin də sayı artır ki, bu da səhiyyə sisteminin həddindən artıq yüklənməsinə səbəb olur.

*Ardı 7-ci səh.*

## "YAŞAT" humanizm prinsiplərinə sadiqliyin təzahürüdür

30 ilə yaxındır Ermənistanın işğalı altında qalan torpaqlarımızın azad olunması və ərazi bütövlüyü uğrunda apardığımız 44 günlük Vətən müharibəsi dünya hərb tarixinə misligörünməmiş savaş kimi düşərək tək Azərbaycan Ordusunun gücünü deyil,  xalqımızın da qüdrətini bəşəriyyətə sübut etdi.

Haqq savaşımız başladığı gündən etibarən Azərbaycanda hər kəs bir amal - Qələbə uğrunda Ali Baş Komandanın ətrafında birləşdi. Siyasi düşüncəsindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşları Ali Baş Komandanın "Qarabağ Azərbaycandır!" çağırışına "İrəli" deməklə dəstək verdi. Müharibə yaşından, pulundan, siyasi baxışlarından, dünyagörüşündən, yaşadığı bölgədən asılı olmayaraq hamını səfərbər etdi. Tək ölkəmizin daxilində deyil, onun hüdudlarından kənarda yaşayan soydaşlarımız da haqq savaşı uğrunda bir oldu. Ön cəbhədə vuruşan mərd oğullarımızın Qələbə sorağı gəldikcə arxa cəbhədə insanların əsgərlərimizə olan dəstəyi də durmadan artdı.

Ürəyi vətənlə döyünən həkimlərimiz, tibb işçilərimiz hərbçilərimizə can vermək, həyatlarını xilas etmək üçün cəbhə bölgəsinə yollandı. Xalqımızın vətənpərvər oğul və qızları Azərbaycan Ordusunun Zəfər yürüşü zamanı yaralanan mərd hərbçilərimiz üçün könüllü şəkildə qan vermək məqsədilə növbəyə düzüldü.

Hər kəs bacardığı qədər, imkanı daxilində orduya, əsgərə dəstək göstərməyə, bacardığı köməyi etməyə, haqq savaşına bir qatqı verməyə tələsdi.

*Ardı 5-ci səh.*

# İlham ƏLİYEV: "İtaliya Azərbaycanın yaxın dostudur"

*Əvvəli 1-ci səh.*



Mən ölkələrimiz arasında strateji tərəfdaşlığın yeni formatı ilə bağlı imzalanmış sənədi xüsusilə qeyd etmək istəyirəm.

Ölkənizin Prezidenti, Baş naziri, parlamentin hər iki palatasının sədrləri və Romanın meri ilə keçirdiyim görüşlər çox müsbət olmuşdur.

**Manlio Di STEFANO:**

- Bir neçə gün öncə Siz İtaliyadan olan nümayəndə heyətini qəbul etmisiniz.

**Prezident İlham ƏLİYEV:**

- Bəli, mən İtaliya parlamentinin sədr müavininin başçılığı ilə müxtəlif siyasi qrupları təmsil edən nümayəndə heyətini qəbul etmişəm. Onlar Ağdamda və Gəncədə olmuşlar. Birinin işğal nəticəsində viran qoyulduğu, digərinin isə müharibə vaxtı ballistik raket hücumu nəticəsində çoxsaylı qurban verdiyi bu iki şəhərə səfər etməklə bağlı onların qərarı məni təsirləndirdi.

Bizim münasibətlərimizə gəldikdə, hesab edirəm ki, bunun gözəl gələcəyi var. Bu günədək biz siyasi, iqtisadi və enerji təhlükəsizliyi sahələrində böyük uğura nail olmuşuq. Biz "Cənub qaz dəhlizi"nin sonuncu hissəsini tezliklə başa çatdıracağıq. Bununla da Azərbaycan və İtaliya gələcək onilliklər ərzində enerji sahəsində çox yaxın tərəfdaş olacaqdır.

Bu, müxtəlif ölkələrdən ibarət geniş bir qrupun birgə səyləri nəticəsində ərsəyə gələn çox əhəmiyyətli nailiyyətdir. Bildiyiniz kimi, biz hər il Bakıda "Cənub qaz dəhlizi" Məşvərət Şurasının toplantısını təşkil edirik və İtaliya hər zaman burada yüksək səviyyədə təmsil olunur. Həmin toplantıların sayəsində biz 3500 kilometr uzunluğunda boru kəmərini inşa etməyə müvəffəq olduq. Kəmərin başlanğıcı Bakıda, sonu isə İtaliyadadır.

Əlbəttə, biz əməkdaşlığımızı dərinləşdirmək arzusundayıq. Bilirəm ki, sizin səfərinizin gündəliyi olduqca genişdir. Biz ölkələrimiz arasında gözəl siyasi münasibətlərimizdən faydalanaraq iqtisadi əməkdaşlıq və daha çox İtaliya şirkətinin Azərbaycanda fəaliyyətə cəlb edilməsi məsələlərini nəzərdən keçirmək niyyətindəyik. Buraya ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, Azərbaycanın dağıdılmış şəhərlərinin bərpasına dair böyük planlarımız da daxildir. Çünki bizim yeni infrastrukturun yaradılmasına - yeni yolların, dəmir yolu xətlərinin, hava limanlarının, məktəb və xəstəxanaların inşasına ehtiyacımız var.

Bunun səbəbi ermənilər tərəfindən hər şeyin dağıdılması, yerləyeksan edilməsidir. Buna dair kifayət qədər videomaterial var. Onlar vəhşi kimi davranmış və şəhərlərimizi darmadağın etmişlər. Bu da Azərbaycana qarşı olan təcavüzkar siyasətin bariz nümunəsidir.

Biz yenidənqurma işləri ilə bağlı ilk addımlar atmışıq. İlk müqavilələr artıq bağlanıb və dediyim kimi, biz işğaldan azad olunan ərazilərdə dost ölkələrdən olan şirkətlərlə çalışacağıq.

İlk müqavilələr türk şirkətləri ilə bağlanılıb və bu da təbiidir, çünki Türkiyə qardaş ölkədir. Ümidvaram ki, növbəti müqavilələr italyan şirkətləri ilə imzalanacaq. Bu da təbiidir. Çünki İtaliya Azərbaycanın yaxın dostudur. Ölkələrimiz arasında çoxillik diplomatik münasibətlərin mövcudluğu dövründə və xüsusilə də müharibə zamanı biz sizin mövqeyinizin şahidi olduq. Ölkənizin parlament nümayəndələrinin müharibənin başa çatmasından bir aydan az vaxt keçməmiş Azərbaycana səfəri bizim güclü dostluq münasibətlərimizi nümayiş etdirir. Biz bu həmrəylik və dəstək jestini yüksək qiymətləndiririk.

Bir neçə gün əvvəl görüşdüyüm nümayəndə heyəti Avropa İttifaqı məkanından olan və müharibədən sonra ölkəmizə gələn ilk qonaqlar idi. Əminəm ki, bu dostluq jestinin praktiki təzahürü olacaq, çünki bu gün biz təkcə enerji sektoru deyil, həmçinin qeyri-enerji sektoru haqqında danışırıq. Azad edilmiş torpaqlarda böyük potensial kənd təsərrüfatı, turizm, bərpa olunan enerji mənbələri ilə bağlıdır. Artıq söylədiyim kimi, böyük infrastruktur layihələri də olacaq. İndi biz həmin ərazilərin bərpa və yenidənqurma planlarını hazırlayırıq. Əminəm ki, biz çox uğurla işləyəcəyik.

Həmçinin bildirmək istərdim ki, İtaliya parlamentarilərinin səfəri Azərbaycan cəmiyyətində çox yüksək dəyərləndirildi. Çünki təsəvvür edin, insanlar bütün dəstək əlamətlərini çox böyük diqqətlə izləyirlər, ona həssaslıqla yanaşırlar. Bir sözlə, bütün cəmiyyət həmin səfəri dəstəyin təzahürü kimi qəbul etdi. Həmçinin insanlar qeyd edir və mən onların rəyi ilə razıyam ki, qonşularınızdan bəziləri parlamentdə Dağlıq Qarabağın tanınması ilə bağlı müəmmalı qətnamələr qəbul edirlər. İtaliyanın millət vəkilləri Azərbaycana hörmət və ehtiramını ifadə etmək, Azərbaycan xalqının əziyyətlərini bölüşdüyünü bildirmək üçün Ağdama getdilər, Gəncəyə səfər etdilər.

Dağlıq Qarabağın tanınmasına gəldikdə isə, hamı bilir ki, hətta Ermənistan həmin qanunsuz strukturu tanımayıb. Buna görə, əgər hansısa ölkə Dağlıq Qarabağı tanımaq istəyirsə, onlar öz ölkəsinin daxilində müəyyən addımlar atsınlar. Onlar öz ölkəsində müəyyən ərazini ayıra bilər və Azərbaycanda yox, öz ölkəsində ikinci erməni dövlətini yarada bilər.

Bir sözlə, bu, bir daha göstərir ki, ölkələrimiz arasında dostluq və xalqlarımız arasında qarşılıqlı müsbət yanaşma artıq reallığa çevrilib. Biz, həmçinin sizin səfərinizi bunun yaxşı əlaməti kimi dəyərləndiririk. Əminəm ki, səfərinizin çox müsbət nəticəsi olacaq və biz bütün sahələrdə güclü əməkdaşlıq məqsədilə növbəti 5-10 il üçün gündəliyimizi lazımi şəkildə tərtib edəcəyik. Bir daha, Azərbaycana xoş gəlmisiniz.

**Manlio Di STEFANO:**

- Sağ olun, cənab Prezident. Əvvəlcə, icazə verin bildirim ki, bu gün burada olmağımdan şərəf hissi duyuram. Səfərim cəmi 24 saatlıq olsa da, onu tam şəkildə təşkil etdiyinə görə sizin Hökumətə minnətdarlığımı bildirirəm. Dünən mən artıq xarici işlər naziri ilə görüşdüm. Məmnun qaldım və biz bir çox sahələrə aid olan məsələlər ətrafında fikir mübadiləsi apardıq. Bu gün mənim digər nazirlərlə görüşmək imkanım olacaq. Bu, aramızda olan əməkdaşlığın real təzahürüdür. İcazə verin, əvvəlcə Sizə və xalqınıza müharibə qurbanları ilə əlaqədar başsağlığımızı verim. Bu, həqiqətən şiddətli müharibə idi və biz İtaliyada bunu böyük narahatlıqla izlədik. Hətta təsəvvür etmək çətindir ki, bu müharibə İtaliyada nə dərəcədə hiss olunurdu, çünki dünyanın bu bölgəsini istənilən mənada özümüzə çox yaxın hesab edirik.

Biz çox çalışdıq ki, hadisələrə hər hansı siyasi rəng qatmayaq. Biz, sadəcə, ölkəmizə nəyin baş verdiyi ilə əlaqədar həqiqəti söyləməyə çalışdıq. Məmnunam, Siz də siyasi mövqeyimizi müsbət dəyərləndirdiniz və o, BMT-nin qətnamələrinə, bir sözlə, sənədlərdə yazılanlara əsaslanır. Təbii ki, atəşkəsin imzalanması bizim hamımıza rahatlıq gətirdi. Hesab edirik ki, bu, birinci və ən vacib məsələ idi. Çünki bilirsiniz, qurbanların sayının artmaması hər kəs tərəfindən hər zaman müsbət qarşılanır. Hazırda biz üçtərəfli Bəyanatdakı müddəaların icrasına yardım etməkdə öz imkanlarımızı təmin etməyə hazır olduğumuzu bildiririk. Hesab edirik ki, bu, bundan sonra görəcəyimiz bütün işlər üçün yaxşı başlanğıc nöqtədir.

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**"Zəfər" ordeni ilə**

Həsənov Zakir Əsgər oğlu - general-polkovnik
Eyvazov Vilayət Süleyman oğlu - general-polkovnik
Quliyev Elçin İsağa oğlu - general-polkovnik
Nağıyev Əli Nağı oğlu - general-polkovnik
Sultanov Orxan Sedyar oğlu - general-polkovnik
Həsənov Ayaz Binyat oğlu - general-leytenant
Tahirov Ramiz Firudin oğlu - general-leytenant
Vəliyev Kərim Tofiq oğlu - general-leytenant
Kərimov Anar Təvəkkül oğlu - general-mayor
Məhərrəmov Aqşin Ramiz oğlu - general-mayor
Sultanov Ağamir Əzizxan oğlu - general-mayor
Tağıyev Rəsul Afiq oğlu - general-mayor
Dadaşov Haxverdi Xudaverdi oğlu - polkovnik
Həmidov Şükür Nəriman oğlu - polkovnik (ölümündən sonra)
Qapaqov Elşən Rafiq oğlu - polkovnik
Quliyev Mətin Ramiz oğlu - polkovnik
Məmmədov Baxşəli Musa oğlu - polkovnik
Məmmədov Samir Adil oğlu - polkovnik
Mirzəyev Nəsib Tahir oğlu - polkovnik
Nağıyev Məhəmməd Biladon oğlu - polkovnik
Pirverdiyev Akif Səməndər oğlu - polkovnik
Samidli Babək Mətləb oğlu - polkovnik (ölümündən sonra)
Qasımov Azər Əlövsət oğlu - polkovnik-leytenant
Rizvanov Anar Tofiq oğlu - polkovnik-leytenant
Süleymanov Rəsul Təvəkkül oğlu - polkovnik-leytenant
Şıxalıyev Nəsimi Yarməmməd oğlu - polkovnik-leytenant
Hacıyev Pərvin Aleksandr oğlu - mayor
İbrahimov Sahib Bayram oğlu - mayor
Mustafayev Bəxtiyar Əli oğlu - mayor
Rəhimov Zaur Şirinbəy oğlu - mayor
Babayev Şamil Baloğlan oğlu - kapitan (ölümündən sonra)
Mahmudov Anar Zahid oğlu - kapitan
Tağıyev Cavid Aydın oğlu - kapitan

**"Qarabağ" ordeni ilə**

Məmmədov Şahin İsgəndər oğlu - general-leytenant
Nağıyev Əfqan Vəli oğlu - general-leytenant
Osmanov Nizam Ramazan oğlu - general-leytenant
Rəhimov Arzu Yusif oğlu - general-leytenant
Abdullayev Cavid Mirhəmzə oğlu - general-mayor
Bağırov Ramin Sabir oğlu - general-mayor
Bərxudarov Mayis Şükür oğlu - general-mayor
Eminov Məmməd Şəmil oğlu - general-mayor
Həsənov Hikmət Hüseyn oğlu - general-mayor
Kazımov Vasif Ramiz oğlu - general-mayor
Abdullayev Rafael Kamil oğlu - polkovnik
Cəfərov Ceyhun Sədulla oğlu - polkovnik
Əlövsədov Həsən Əli oğlu - polkovnik
Quliyev Xaliq Qulu oğlu - polkovnik
Məmmədov Teymur Davud oğlu - polkovnik
Məşədiyev Taleh Vəliyət oğlu - polkovnik
Musayev Telman Qurban oğlu - polkovnik
Namazov Eldəniz Firuddin oğlu - polkovnik
Omarov Barat Bayram oğlu - polkovnik
Orucəliyev Mayis Mirzəyar oğlu - polkovnik
Pənahov Elşad İslam oğlu - polkovnik
Rəhimov Rəşad Manaf oğlu - polkovnik
Rüstəmov Zaur Zeynalabdul oğlu - polkovnik
Rzayev Gülməmməd Tofiq oğlu - polkovnik
Seyfullayev Cəbi Güləhməd oğlu - polkovnik
Şıxiyev Həbib Vələddin oğlu - polkovnik
Abduləzizov Elnur Abduləziz oğlu - polkovnik-leytenant
Abdullayev Vüqar Arif oğlu - polkovnik-leytenant
Ağagülov Elşən Etibar oğlu - polkovnik-leytenant
Ağcayev Bayram İlyas oğlu - polkovnik-leytenant
Aslanov Rəşad Əmirbəy oğlu - polkovnik-leytenant
Bağırov Ceyhun Əkbər oğlu - polkovnik-leytenant
Bayramov Teyyub Nurəli oğlu - polkovnik-leytenant
Bədəlov Firuz Əhməd oğlu - polkovnik-leytenant
Əmirov Zamiq Məhəmməd oğlu - polkovnik-leytenant
Əsədli Aqil Əlirza oğlu - polkovnik-leytenant
Fərmanov Reyhun Arif oğlu - polkovnik-leytenant
Haqverdiyev Qulam Fikrət oğlu - polkovnik-leytenant
Həziyev Şəmşir Bəxtiyar oğlu - polkovnik-leytenant
Hüseynov Elxan Kərim oğlu - polkovnik-leytenant
İbrahimov Pərviz Bəhram oğlu - polkovnik-leytenant
İsmayılov Samir Əlmusa oğlu - polkovnik-leytenant
Qənbərov Mehman Nərman oğlu - polkovnik-leytenant (ölümündən sonra)
Quliyev Anar Eldar oğlu - polkovnik-leytenant
Quliyev Ümüdvar Əzizalı oğlu - polkovnik-leytenant
Qurbanov Səfər Qurban oğlu - polkovnik-leytenant
Məmmədov Ehtiram Eldar oğlu - polkovnik-leytenant
Məmmədov Elçin Ziyadxan oğlu - polkovnik-leytenant
Məmmədov Elmir Ağamalı oğlu - polkovnik-leytenant
Məmmədov Zaur Alxan oğlu - polkovnik-leytenant
Mustafayev Babək Salman oğlu - polkovnik-leytenant
Müslümov Dəyanət Nuru oğlu - polkovnik-leytenant
Rəfiyev Elçin Mirzəxan oğlu - polkovnik-leytenant
Rizvanov Həbib Səməd oğlu - polkovnik-leytenant
Rüstəmov Teyfur Çərkəz oğlu - polkovnik-leytenant
Rüstəmov Zaur Tahir oğlu - polkovnik-leytenant
Rzayev Orxan Nüsrət oğlu - polkovnik-leytenant
Salahov Vüqar Nizami oğlu - polkovnik-leytenant
Səlimov Şamxal Naid oğlu - polkovnik-leytenant
Şadmanov Nəsimi Yunis oğlu - polkovnik-leytenant
Şəfiyev Famil Mirsahib oğlu - polkovnik-leytenant
Şirvanov Mehman Mirəziz oğlu - polkovnik-leytenant (ölümündən sonra)
Tağıyev Samir Nəsrəddin oğlu - polkovnik-leytenant
Ağayev Rövşən Eldar oğlu - mayor
Axundov Emil Aqil oğlu - mayor
Atakişiyev Rəşad Nazim oğlu - mayor
Babayev Mahir Tahir oğlu - mayor
Balıev Hüseynağa Salman oğlu - mayor (ölümündən sonra)
Bilalov Amil Adil oğlu - mayor
Cəfərov Azad Asif oğlu - mayor
Daşdəmirov Nail Təmraz oğlu - mayor
Eminov Elimdar Həsən oğlu - mayor
Əliyev Kəramət İbrahim oğlu - mayor
Əliyev Pərviz Həmzə oğlu - mayor
Əliyev Ramin Rizvan oğlu - mayor
Əliyev Rəvan Musa oğlu - mayor
Fərəcov Cavid Yaşar oğlu - mayor
Fərəcov Əliheydər İsrafil oğlu - mayor
Hacıyev Ramid Nəriman oğlu - mayor (ölümündən sonra)
Həsənov Əlişan Şakir oğlu - mayor
Həsənov Hümmət Fərrux oğlu - mayor
Hüseynov Rəhim Qədir oğlu - mayor (ölümündən sonra)
Kərimov Taleh Adil oğlu - mayor (ölümündən sonra)
Qənbərov İdris Dərya oğlu - mayor
Qəribov Sahib Xanlar oğlu - mayor
Qlinçev Anar Mirzəli oğlu - mayor
Mehdiyev Rüstəm Süleyman oğlu - mayor
Məlikov Vüqar Telman oğlu - mayor
Məmmədov Elşən Tağı oğlu - mayor
Mikayılov Azər Əmrah oğlu - mayor (ölümündən sonra)
Muxtarov Ələsgər Faiq oğlu - mayor
Paşayev Elsevər Vaqif oğlu - mayor (ölümündən sonra)
Səfərov Elgün Elmar oğlu - mayor
Süleymanlı Elçin Səlimxan oğlu - mayor
Şükürov Mahmud Sabir oğlu - mayor
Zeynalov Rauf Çingiz oğlu - mayor
Ağayev Şamxal Elşad oğlu - kapitan
Aslanov Elmin Məhərrəm oğlu - kapitan
Babayev Xaliq Əli oğlu - kapitan
Baxşəliyev Nizami Füzuli oğlu - kapitan
Gülüyev Zaur Rusxət oğlu - kapitan
Hacımuradov Səbrulla Hacımurad oğlu - kapitan
Həsənov Vüsal Oktay oğlu - kapitan
Hüseynov Elşən Əli oğlu - kapitan
Hüseynov Ülvü Möhsün oğlu - kapitan (ölümündən sonra)
Hüseynzadə Həmidağa Bağı oğlu - kapitan (ölümündən sonra)
İbadov Tahir Allahverdi oğlu - kapitan
İbrahimov Abdal Rafiq oğlu - kapitan
Qurbanov Elman Xanlar oğlu - kapitan
Məmmədov Ceyhun İslam oğlu - kapitan
Məmmədov Əsgər Zaman oğlu - kapitan
Məmmədov Nurlan Qabil oğlu - kapitan
Rəşidli Tamerlan Elçin oğlu - kapitan
Rüstəmzadə Qalib Firdovsi oğlu - kapitan
Rzabəyli Eltürk Əli oğlu - kapitan
Şikarov Nəcəf Şikar oğlu - kapitan (ölümündən sonra)
Şirinov Kamil Əliş oğlu - kapitan (ölümündən sonra)
Tağıyev Elçin Ağaqulu oğlu - kapitan (ölümündən sonra)
Vəliyev Rəşad Elşən oğlu - kapitan
Həşimov Fərrux Mirzəmməd oğlu - kapitan-leytenant (ölümündən sonra)
Abbasbəyli Həmid Cavanşir oğlu - baş leytenant (ölümündən sonra)
Abbaslı Arif Firuz oğlu - baş leytenant (ölümündən sonra)
Abbaslı Cəlal Cəlil oğlu - baş leytenant
Abbaslı Cəsarət Ədalət oğlu - baş leytenant
Abbasov Eldar Adil oğlu - baş leytenant
Abdullayev İbrahim Habil oğlu - baş leytenant (ölümündən sonra)
Abdullayev Ramazan Səfəralı oğlu - baş leytenant
Ağayev Süleyman Əhəd oğlu - baş leytenant
Aslanov Ülvü Tahir oğlu - baş leytenant
Əhmədzadə Natiq Nadir oğlu - baş leytenant
Ələkbərov Əlisahib Selman oğlu - baş leytenant (ölümündən sonra)
Əliyev Faiq Fəyyaz oğlu - baş leytenant
Əsgərzadə Bəkir Zakir oğlu - baş leytenant
Feyzullayev Polad Taryel oğlu - baş leytenant
Həsənov Vüsal Vüqar oğlu - baş leytenant
Hüseynov Nəbi Hacıbala oğlu - baş leytenant (ölümündən sonra)
Kazımov Kamran Qurbanəli oğlu - baş leytenant (ölümündən sonra)
Quliyev Tural Adil oğlu - baş leytenant
Qüdrətli Elçin Yaşar oğlu - baş leytenant
Lətifov Lətif Nazim oğlu - baş leytenant
Mustafayev Rauf Əzizağa oğlu - baş leytenant
Nəcəfov Cəmil Nəcəf oğlu - baş leytenant (ölümündən sonra)
Rzazadə Həsən Vüqar oğlu - baş leytenant (ölümündən sonra)
Salmanov Həmzə Telman oğlu - baş leytenant
Zeynalov Elnur Elsevər oğlu - baş leytenant (ölümündən sonra)
Bayramov Emil Mürsəl oğlu - leytenant
Bədəlov Fərəc Simran oğlu - leytenant
Eyvazov Elvin Pərviz oğlu - leytenant
Əsədov Emil Balaqardaş oğlu - leytenant (ölümündən sonra)
Hüseynov Qarakişi Arif oğlu - leytenant
Qaraşov Məhəmməd İlham oğlu - leytenant
Qədirov Məhəmməd Valeh oğlu - leytenant
Mehdiyev Rəşad Faxrəddin oğlu - leytenant
Məmmədov Əhməd Qüdrət oğlu - leytenant
Mövlamov Sabir Rasim oğlu - leytenant
Rəsulov Samir Elxan oğlu - leytenant
Səmirov Baloğlan Nəriman oğlu - leytenant
Şirinov Pünhan Niyaz oğlu - leytenant
Cabbarov Yusif Yunsur oğlu - baş gizir
Cavadov Natiq Şahin oğlu - baş gizir
Fərəcov Famil Yavər oğlu - baş gizir
Yusifov Mehman Musa oğlu - baş gizir (ölümündən sonra)
Mehdizadə Mərdan Əhməd oğlu - baş miçman (ölümündən sonra)
Budaqov Rufiz Şirzad oğlu - gizir (ölümündən sonra)
Cavadlı Nemət Cavid oğlu - gizir (ölümündən sonra)
Ələsgərli Zaur Mübariz oğlu - gizir (ölümündən sonra)
Əliyev Tural Səfər oğlu - gizir
Əmənov Məhəmməd İltizam oğlu - gizir (ölümündən sonra)
Əsgərov Asəf İlqar oğlu - gizir (ölümündən sonra)
Həsənov Mustafa Elşad oğlu - gizir
Hüseynov Azər Fəxrəddin oğlu - gizir
İbrahimov Əlmuxtar Gülağa oğlu - gizir
Qarayev Əfsər Hafis oğlu - gizir
Qasımov Nuran Sabir oğlu - gizir
Quliyev Nəbi Tələt oğlu - gizir
Quliyev Şəhriyar Nəsib oğlu - gizir (ölümündən sonra)
Mirzəyev Zəka Kamal oğlu - gizir
Nağıyev Anar Sahib oğlu - gizir (ölümündən sonra)
Rəşidov Tural Fazil oğlu - gizir (ölümündən sonra)
Sadıqlı İbrahim Şahin oğlu - gizir (ölümündən sonra)
Zeynalov Xalid İltifat oğlu - gizir
Məmmədov Vüsal Qüdrət oğlu - miçman (ölümündən sonra)
Nəcəfov Fuad Taleh oğlu - miçman (ölümündən sonra)
Rəcəbov Ruslan Rəcəb oğlu - miçman (ölümündən sonra)
Səfərov Elvin Ramiz oğlu - miçman (ölümündən sonra)
Abdullayev Elcan Elçin oğlu - kiçik gizir
Cavadov Yelmar Elgiz oğlu - kiçik gizir
Dəmirov Siyahim Əlizamin oğlu - kiçik gizir (ölümündən sonra)
Əzizli Əziz Sabir oğlu - kiçik gizir
Xanzadə Elnur Yusif oğlu - kiçik gizir
Qardaşxanov İbrahim Səmid oğlu - kiçik gizir
Qasımov Mirağa Hafiz oğlu - kiçik gizir (ölümündən sonra)
Quliyev Pərviz Aydəmir oğlu - kiçik gizir
Quluzadə Orxan Elxan oğlu - kiçik gizir (ölümündən sonra)
Mənəfov Şahmar Vidadi oğlu - kiçik gizir (ölümündən sonra)
Mikayılov Nazim Namik oğlu - kiçik gizir
Musayev Ramil Aydın oğlu - kiçik gizir (ölümündən sonra)
Şıxəliyev Mehti Yalçın oğlu - kiçik gizir (ölümündən sonra)
Abdullayev Tural Şakir oğlu - baş çavuş (ölümündən sonra)
Allahyarov Vüsal Şakir oğlu - baş çavuş (ölümündən sonra)
Hüseynli Ələddin Zahid oğlu - çavuş
Cabbarov Elnur Şahmurad oğlu - əsgər (ölümündən sonra)
Məhərrəmov Əkbər Səyyaf oğlu - əsgər
Mənaflı Dursun Marif oğlu - əsgər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2020-ci il*

# Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan birgə şam ediblər



**Dekabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva, ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan birgə şam ediblər.**

## Prezidentə yazırlar

# “Sizin sayənizdə biz təkcə döyüş meydanında deyil, informasiya müharibəsində də qalib gəldik”

*Əvvəli 1-ci səh.*

Hörmət və minnətdarlığımla əllərinizdən öpürəm”.

Ağsu rayonundan **Elçin Zeynalov:** “Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan, Sizi Laçın rayonunun bütün sakinləri, o cümlədən ailəmizin üzvləri adından şanlı Ordumuzun qazandığı qələbələr, doğma torpaqların yağı düşməndən azad edilməsi münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Siz eyni vaxtda iki düşmənlə - gözəgörünməz koronavirus pandemiyası və gözəgörünən ermənilərlə mübarizə apardınız. Əminəm ki, erməni işğalçıları üzərində qazandığınız parlaq qələbəni pandemiya ilə mübarizədə də qazanacaqsınız. Siz öz şücaətinizlə, qətiyyətinizlə, iradənizlə, uzaqgörənliyinizlə və qeyrətinizlə bizim 28 illik həsrətimizə son qoydunuz və Azərbaycan xalqının Milli Qəhrəmanı oldunuz. Döyüş meydanında qazandığınız bu fəxri ad hər bir azərbaycanlının ürəyindən xəbər verir. Siz Azərbaycan xalqının qüdrətini təkcə Ermənistana deyil, bütün dünyaya göstərdiniz. Sizin sayənizdə biz təkcə döyüş meydanında deyil, informasiya müharibəsində də qalib gəldik. Müharibə getdiyi bir vaxtda dünyanın aparıcı kanallarına mətin, əsaslı cavablarınızla haqq səsimizi çatdırdınız. Azərbaycan xalqı bütün varlığı ilə Sizə inanır. Siz bu xalqın xilaskarısınız. Allah Sizi qorusun! Sizin əsl qalib sərkərdə olmağınızı tək biz yox, bütün dünya gördü. Siz öz adınızı tarix səhifələrinə qızıl hərflərlə yazdınız. Siz mənim 80 yaşlı atamın, 70 yaşlı anamın həsrətinə son qoydunuz. İnanıram ki, rayonumuzun bütün sakinləri mənim kimi doğma Laçınımızda Sizin qızıldan büstünüzü görmək istəyirlər. Ömrümüz boyu Sizə minnətdarıq. Sizin şərəfinizə nə qədər xoş sözlər deyilsə də, nə qədər kitablar yazılsa da, yenə azdır. Bir daha Sizi səmimi-qəlbdən təbrik edir, gələcək fəaliyyətinizdə uğurlar arzulayırıq. Dünya durduqca durasınız! Allah yar və yardımçınız olsun! Amin!”

Şəmkir rayonundan **Əziz Aslanovun** məktubunda deyilir: “Cənab Prezident, Müzəffər Ali Baş Komandan, biz Aslanovlar ailəsi olaraq Sizi daim dəstəkləmişik və bundan sonra da dəstəkləyəcəyik. Bizim Sizi dəstəkləməyimizin səbəbi xalqımızın rifahının yaxşılaşdırılması üçün yürütdüyünüz ardıcıl siyasətdir. Bunu yalnız Vətən xainləri görməyə bilərlər. Haqqa, ədalətə, beynəlxalq hüquqa əsaslanan uğurlu siyasətiniz, qətiyyətli iradəniz sayəsində və müzəffər Ordumuzun qəhrəmanlığı ilə torpaqlarımızın işğaldan azad edilməsi, eyni zamanda qızıl hərflərlə yazılan bu parlaq hərbi və siyasi Qələbə münasibətilə Sizi Aslanovlar ailəsi adından ürəkdən təbrik edir, dərin minnətdarlığımızı bildiririk. Azərbaycan xalqı Sizinlə qürur duyur. Fəxr edirik ki, Sizin kimi əvəzolunmaz bir liderimiz var. Allah Sizi və yenilməz Ordumuzu qorusun! Sizə sonsuz təşəkkürlərimizi bildiririk. Bu qürurverici və sevinc hisslərini bizlərə yaşatdığınız üçün Sizə minnətdarıq. Torpaqlarımızı özümüzə qaytardınız. Xalqımızın həsrətinə son qoydunuz. Siz bir daha bütün dünyaya sübut etdiniz ki, bu torpaqlar Azərbaycanındır. Dünya liderlərinin Sizdən öyrənəcəyi çox şey var. Azərbaycanın gələcəyi isə düşünürəm ki, çox parlaqdır. Çünki bu ölkənin Sizin kimi əvəzolunmaz Prezidenti, Ali Baş Komandanı var”.

Samux rayonundan **Natiq Allahverdiyev:** “Əziz və hörmətli Prezidentim, mən bir sadə kəndli kimi möhtəşəm Qarabağ qələbəsi münasibətilə Sizi üzbəüz təbrik etmək, bir ağsaqqal kimi Sizi bağrıma basmaq istərdim. Çünki Siz uzun illər ərzində millətin qəlbində olan nisgilə son qoydunuz, xalqımızı torpaqlarımız üçün ayağa qaldırdınız, xalqımızın qürur hissini bərpa etdiniz, azərbaycançılığın nə demək olduğunu balalarımıza əyani göstərdiniz, Qarabağımızı Azərbaycanımıza qaytardınız. Sizə ömrümün sonuna kimi minnətdaram, cənab Ali Baş Komandanım. Uca Allahdan arzu edirəm ki, Sizə uzun ömür, cansağlığı versin. Allah-təala Sizi çəkdiyiniz əziyyətlərin bəhrəsi olaraq dövlətimizi arzuladığınız bir dövlət kimi görmək xoşbəxtliyi qismət eləsin. Ümummilli Liderimiz Heydər Əliyevin dediyi kimi, mən fəxr edirəm ki, azərbaycanlıyam, mən fəxr edirəm ki, Sizin kimi Prezidenti olan ölkənin vətəndaşıyam. Allah Sizi və xalqımızı qorusun!”

Gəncə şəhər sakini **Mürsəl Əliyevin** məktubunda deyilir: “Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, torpaqlarımızın erməni işğalçılarından təmizlənməsi uğrunda gedən Vətən müharibəsində qazandığımız Qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm, Sizi bağrıma basıram. Bütün xalqımız kimi Sizinlə fəxr edirəm, Ordumuzla qürur duyuram. Döyüşdə qazandığımız Qələbəyə görə dövlətimizə, Orduмuza, ən başlıcası isə Sizə, Ali Baş Komandanımıza minnətdarıq. Allah Azərbaycan xalqını, Azərbaycan əsgərini qorusun, hörmətli Prezidentimizin kölgəsini Azərbaycan xalqının başı üzərindən əskik etməsin. Cənab Prezident, bu yolda Sizinləyik, Sizi ürəkdən dəstəkləyir, Sizinlə fəxr edir, Sizi sevirik. Allah Sizi qorusun, eşq olsun Sizə. Siz dünyaya sübut etdiniz ki, Qarabağ Azərbaycandır! Siz bizim əbədi Prezidentimizsiniz. Mən arzu edirəm ki, Siz Azərbaycan xalqının Milli Qəhrəmanı adına layiq görüləsiniz, çünki Siz, həqiqətən də, bizim Milli Qəhrəmanımızsınız. Bir çox ölkələrin təsir və təzyiqlərinə baxmayaraq, həm hərb cəbhəsində, həm də informasiya cəbhəsində böyük nailiyyətlər qazanmağınız bütün dünyaya məlumdur. Bütün xalqımız kimi mən də Sizin zəkanıza, Sizin hazırcavablığınıza heyranam. Bizi sevməyən jurnalistlərin dilini qurudanda Sizi bağrıma basmaq istəyirdim. Sizinlə fəxr edir, qürur duyuram. Bu gün bütün xalqımız da mənim kimi Sizinlə fəxr edir. Bütün xalqımızın arzusudur ki, Sizi Azərbaycanın Milli Qəhrəmanı kimi görsünlər. Biz bunu ürəkdən arzu edirik. Mənim ən böyük arzum budur ki, Qələbə münasibətilə keçiriləcək hərbi paradda mənim də iştirak etməyim üçün icazəm olsun. Azərbaycan torpaqlarının işğaldan azad olunması uğrunda gedən Vətən müharibəsində şəhid olmuş balalarımıza Allahdan rəhmət diləyir, onların ruhu qarşısında baş əyirik. Allah şəhidlərimizin valideynlərinə, bütün xalqımıza səbir versin. Müzəffər Ali Baş Komandan, mən Gəncə əhalisi adından, ailəmiz adından, yuxarıda göstərilənləri Sizə bildirməklə bu gün apardığınız dönməz siyasəti dəstəkləyir, hər zaman Sizin yanınızda olduğumuzu bildirir və Vətən yolunda, dövlətimiz uğrunda, torpaqlarımızın bütövlüyü uğrunda canımdan keçməyə hazır olduğumu, hər an döyüşə getməyə canla-başla hazır olduğumu bildirmək istəyirəm”.

Zərdab sakini **Rəşid Mahmudov:** “Müzəffər Ali Baş Komandan, Sizi və xalqımızı təbrik edirəm. Bu Qələbəmiz bütün dünyaya Azərbaycan Ordusunun gücünü göstərdi. Sizin sayənizdə bu xoş günləri biz yaşadıq. Bir gənc olaraq mən Sizinlə eyni bir əsrdə yaşadığım üçün, gözəl günlərin şahidi olduğum üçün çox sevinirəm. Cənab Prezident, mənim qardaşım da könüllü döyüşlərdə iştirak edib, hazırda Qarabağ ərazisindədir. Cənab Prezident, Azərbaycan xalqı nə qədər mövcuddursa, bizə başqa lider lazım deyil. Siz bizim əvəzolunmaz sərkərdəmizsiniz.

Uca Allah Sizi, ailənizi və xalqımızı qorusun. Daim Sizin arxanızdayıq, Sizinləyik. Dövlətimizi Sizə, Sizi isə Uca Allaha əmanət edirəm”.

Qusardan **Tahirə Nurəhmədova** dövlət başçısına yazır: “Müzəffər Ali Baş Komandan, bu məktubu Qələbə müjdəli xoş xəbərlərdən ruhlanaraq yazıram. Düşmən Ağdam, Kəlbəcər və Laçın rayonlarını da tərk etməyə məcbur oldu. Sizin uzaqgörən siyasətinizin uğurlu nəticəsidir ki, işğalda olan torpaqlarımız itkisiz geri alındı. Bu münaqişənin siyasi, diplomatik həll yoludur və buna Sizin sayənizdə nail olduq. Cənab Prezident, mən şəhid anasıyam, oğlum oktyabr ayında Vətən müharibəsində şəhid olub. Ana üçün bala itkisi böyük dərddir. Amma təskinliyi onda tapıram ki, işğal altında olan torpaqlarımız azad olundu, şəhidlərimizin qanı yerdə qalmadı. Təki Vətən sağ olsun! Allah Sizləri qorusun! Müzəffər Ordumuza eşq olsun!”

Qəbələdən **Zahir Seyidov:** “Hörmətli cənab Prezident, Sizi və bütün Azərbaycan xalqını bu tarixi Qələbə münasibətilə ürəkdən təbrik edirik. Sizə möhkəm cansağlığı, uzun ömür, gələcək yorulmaz fəaliyyətinizdə böyük uğurlar arzulayırıq. Siz 27 ildən artıq sürən həsrətə 44 günlük Vətən müharibəsi ilə birdəfəlik son qoydunuz. Qarabağı, eləcə də ətraf rayon və şəhərlərimizi işğaldan azad etməklə tariximizin ən müqəddəs səhifəsini qızıl hərflərlə yazdınız. Biz Sizə güvəndik və inandıq, yenə də inanırıq və həmişə inanacağıq. Siz bütün dünyaya sübut etdiniz ki, Qarabağ Azərbaycandır! Allah Sizi, Ordumuzu və xalqımızı qorusun!”

Sabirabad rayonundan **Ramiz Nifbalayev:** “Müzəffər Ali Baş Komandan, bizə yaşatdığınız möhtəşəm Qələbə sevincinə görə Sizə sonsuz minnətdarlığımı bildirirəm. Erməni işğalçıları ilə cəbhədə qəhrəman əsgərlərimiz, Ermənistan və ermənipərəst ölkələr qarşısında isə Siz vuruşdunuz. Qarabağın Azərbaycan olduğunu bütün dünyaya sübut etdiniz. Biz bütün Azərbaycan xalqı olaraq hazırda böyük bir tarixə şahidlik edirik. Sizin zəngin dünyagörüşünüz, uzaqgörən və müdrik siyasətiniz, dərin tarixi və diplomatik bilikləriniz ölkəmizin dünya arenasında layiqli təmsil olunmasında əsas rol oynadı. Bu qürurlu tarixə şahid olduğumuz üçün Sizə sonsuz təşəkkürlərimizi bildiririk. Sizə möhkəm cansağlığı, uzun ömür arzulayıram. Dualarımız hər zaman Sizinlədir”.

İmişli rayonundan **Tural Əhmədov:** “Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, 2003-cü il oktyabrın 15-də Siz Azərbaycan Respublikasının Prezidenti seçilərkən hər bir gənc kimi mənim də sevincimin hədd-hüdudu yox idi. Aprel döyüşlərində məhz Sizin uzaqgörən siyasətinizin nəticəsində qalibiyyət əldə edərək, Lələtəpədə üçrəngli bayrağımızı dalğalandırmaqla sevinc üstünə sevinc bəxş etdiniz. Rəşadətli Ordumuzun şücaəti və Sizin uğurlu siyasətiniz nəticəsində doğma torpaqlarımızı bütünlüklə düşməndən azad etdiyiniz üçün, bizə bütöv Azərbaycanı bəxş etdiyiniz üçün təşəkkür edirik. Bu günləri bizə yaşatdığınız üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Siz hər zaman demisiniz ki, mən hər bir azərbaycanlının Prezidentiyəm və bunu sübut etmisiniz. Allah Sizi xalqımızın başının üstündən əskik etməsin! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

Neftçaladan **Eldar Əhmədov:** “Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan, mən bir Azərbaycan vətəndaşı kimi Qələbə qazandığımız üçün çox sevinirəm və Sizi ailəmiz adından, şəxsən öz adımdan ürəkdən təbrik edirəm. Sizin müdrik rəhbərliyiniz sayəsində ölkəmiz öz ərazi bütövlüyünü bərpa etdi. Dövlətimiz və xalqımız üçün etdiklərinizə görə Sizə çox minnətdarıq. Siz Azərbaycanın Milli Qəhrəmanı adına layiqsiniz. Əziz Prezidentimiz, əminik ki, Sizin rəhbərliyinizlə bütün çətinliklərin öhdəsindən uğurla gələcəyik. Allah Sizi qorusun”.

İmişli sakini **Novruz Hüseynov:** “Hörmətli, cənab Prezident, zati-aliləri, Müzəffər Ali Baş Komandan, müqəddəs müharibə olan Vətən müharibəsində Ordumuzun qazandığı möhtəşəm Qələbəyə görə, ən əsası, 30 ilə yaxın xain Ermənistanın işğalı altında olan ərazilərimizin azad edilməsi münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, müstəqil və ərazi bütövlüyü bərpa edilmiş Azərbaycanın inkişafı naminə görəcəyiniz işlərdə Sizə uğurlar arzulayıram. Ulu Tanrı Sizi, ailənizi və Azərbaycan xalqını qorusun!”

Qax rayon sakini **Nemət Məmmədov:** “Salam olsun Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevə, Qarabağın tam azad olunması münasibətilə Sizi və Azərbaycan Xalqını, Azərbaycan Ordusunu ürəkdən təbrik edirəm. Allahdan Sizə və ailənizə uzun ömür, cansağlığı arzu edirəm. Siz bu möhtəşəm Qarabağ qələbəsi ilə Azərbaycan xalqını çox sevindirdiniz. Allah Sizi Azərbaycan xalqının başı üstündən əskik eləməsin. Mən bir vətəndaş olaraq Sizinlə qürur duyuram. Sizin yürütdyünüz siyasəti dəstəkləyirəm”.

Bakı sakini **Azər Sadıqov:** “Allahımın xoş xasiyyətli və mərd bəndəsi, xalqımın Prezidenti, Ordumun Müzəffər Ali Baş Komandanı və qədim Şuşamın igid Fatehi möhtərəm İlham Əliyev, Azərbaycanda hər il Anım və Qələbə günlərinin qeyd olunması barədə imzaladığınız sərəncamla sanki biz Qarabağ müharibəsi veteranlarına bir nəfəs vermiş oldunuz. Sevincimdən göz yaşlarımı gizlədə bilmədim və sevincimi Sizinlə paylaşmağı qərara aldım. Üç il bir tankçı zabit kimi səngər həyatını yaşadım. Öz-özümə deyirdim ki, görəsən, Allah bizlərə Qələbə gününü qismət edəcəkmi?! Çox şükür Allaha. Allahın nəzəri üstünüzdən əskik olmasın! Amin!”

Lerik sakini **Naib Quliyev:** “Cənab İlham Əliyev, bu gün Ulu Öndərin şah əsəri olan müstəqil Azərbaycan dövləti, cənab Prezident, Sizin qətiyyətli, yenilməz sərkərdə cəsarətiniz və diplomatik məharətiniz sayəsində tarixin şanlı günlərini yaşayır. Düşmən tapdağı altında olan torpaqlarımız Sizin rəhbərliyiniz və müzəffər Ordumuzun qüdrəti ilə azad edilmiş və ərazi bütövlüyümüz bərpa olunmuşdur. Sizin dəmirdən möhkəm yumruğunuz düşmənin başını əzdi. Cənab Prezident, Siz 44 gün ərzində ermənipərəst dövlətləri layiqincə dəf etdiniz. İnanmaq olmur ki, 27 il ermənilərin işğalında olan Qarabağımız 44 günə azad edildi. Siz bir daha bütün dünyaya sübut etdiniz ki, heç bir qüvvə Azərbaycanı haqq yolundan döndərə bilməz. Bu gün xalqımız böyük sevinc və qürur hissi keçirir. 74 yaşlı bir insan, 46 ilin müəllimi kimi ailəmizlə bərabər Sizi və xanımınızı ürəkdən təbrik edirik. Biz Sizinlə fəxr edirik, cənab Prezident. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Yaşasın Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyev! Eşq olsun rəşadətli, şanlı və məğlubedilməz Azərbaycan Ordusuna! Gözün aydın, Azərbaycan xalqı! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

Füzuli sakini **Fəxri Balakişizadə:** “Cənab Prezident, mən Sizi ürəkdən təbrik edirəm. Yaxşı ki varsınız, cənab Prezident. Həqiqətən, Siz həm xarici qüvvələrlə müharibədə qalib gəldiniz, həm də Ali Baş Komandan kimi Ordumuzla, millətimizlə birlikdə düşmənin belini qırıb, məğlub etdiniz. Təbii ki, bunu Sizin rəhbərliyinizlə və Ordumuzun şücaəti ilə bacardıq. Mən Sizinlə fəxr edirəm, Allah Sizə uzun ömür, cansağlığı versin. Cənab Prezident, inanın ki, bizlər həmişə Sizin yanınızdayıq və Sizi ömürboyu Azərbaycanın Prezidenti görmək istəyirik. Yaşasın Azərbaycan! Yaşasın Ali Baş Komandan! Biz birlikdə güclüyük! Allah şəhidlərimizə rəhmət etsin, yaralılarımıza şəfa versin. Qarabağ Azərbaycandır!”

Naftalan sakini **Gülnar Quliyeva:** “Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, əziz sərkərdəmiz, doğma Qarabağımızı böyük zəfərlə bizə qaytardığınıza görə ailə üzvlərim və öz adımdan Sizə və çox hörmətli Mehriban xanım Əliyevaya dərin minnətdarlığımı bildirirəm. Çox xoşbəxtik ki, dünya diplomatiyasında sözünü deyən, hərbidə əsl sərkərdə, həyatda humanist insan, uzaqgörən Prezidentimiz var. Biz naftalanlılar Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı kimi hər zaman Sizinlə bir olmuşuq. Bundan sonra da bu yolla daim sədaqət və fədakarlıqla gedəcəyik. Sizin səhiyyə işçilərinə olan qayğınız məni bir tibb işçisi olaraq hər zaman daha əzmlə çalışmağa, əhalinin sağlamlığının keşiyində daha həvəslə durmağa ruhlandırır. Bu qayğıya və verdiyiniz dəyərə görə Sizə sonsuz təşəkkürümü bildirirəm. Uca Allah Sizə yar olsun!”

Zaqatala sakini **Zahid Ramazanov:** “Hörmətli cənab İlham Əliyev, mən sadə bir kənd sakiniyəm və Sizə öz səmimi təşəkkürümü bildirmək istəyirəm. Hörmətli İlham Əliyev, Siz bu gün sadəcə Prezident deyilsiniz, ondan da qat-qat yüksəkdəsiniz. Siz bütün Azərbaycan xalqını xoşbəxt edən, bütün xalqımızı qürurlandıran bir sərkərdəsiniz. Mən yaxşı bilirəm ki, bütün insanlar belə düşünür, bu gün qazanılan Qələbə uzun illər görülmüş işlərin nəticəsidir. Bu işləri Siz görmüsünüz. Cəbhədə qazanılan Qələbədə, əlbəttə ki, əsgərlərimizin əməyi və qorxmazlığı böyük rol oynayıb, bu, danılmazdır. Amma nə qədər qorxmaz və cəsarətli əsgərlər olsa da, onlara səhv rəhbərlik edilsə, onlar qalib gələ bilməzlər. Ona görə də hər şeydən əvvəl hesab edirəm ki, Sizin düzgün və hesablanmış siyasətiniz bizim Qələbəmiz üçün ən vacib amil idi. Bütün xalqımız kimi, mən də fəxr edirəm ki, biz qalib xalqıq və bu Qələbənin başında İlham Əliyev dayanır. Allah Sizi və Azərbaycanımızı qorusun!”

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına “Vətən Müharibəsi Qəhrəmanı” adının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıdakı hərbi qulluqçularına “Vətən Müharibəsi Qəhrəmanı” adı verilsin:

Mehdiyev İlham İsmayıl oğlu - general-leytenant
Mirzəyev Hikmət İzzət oğlu - general-leytenant
İslamzadə Namiq Sərəfruz oğlu - general-mayor
Məmmədov Zaur Sabir oğlu - general-mayor
Seyidov Kənan Əlihüseyn oğlu - general-mayor
Cahangirov Ələkbər Məhəmməd oğlu - polkovnik
Ələkbərov Babək Mürsəl oğlu - polkovnik
Hüseynov Telman Əsgər oğlu - polkovnik
İsrayılov Raqif İbadulla oğlu - polkovnik
Qurbanov Babək Vahid oğlu - polkovnik
Mövlanov Nizami Bəydəmir oğlu - polkovnik
Nudirəliyev Zaur İsmayıl oğlu - polkovnik (ölümündən sonra)
Sultanov Vüsal Eynulla oğlu - polkovnik
Yusibov Zəfər Qəzənfər oğlu - polkovnik
Zeynalov Zaur İlham oğlu - polkovnik
Quliyev Zaur Hikmət oğlu - 1-ci dərəcəli kapitan
Abdurahmanov Əfqan Ağasəf oğlu - polkovnik-leytenant (ölümündən sonra)
Baxışov Səxavət Mamed oğlu - polkovnik-leytenant
Camalov Ceyhun Fikrət oğlu - polkovnik-leytenant
Cəfərov Ramiz Sübhan oğlu - polkovnik-leytenant (ölümündən sonra)
Əkbərov Orxan Nadir oğlu - polkovnik-leytenant (ölümündən sonra)
Əliyev Anar Vaqif oğlu - polkovnik-leytenant (ölümündən sonra)
İbrahimov Xaliq Arif oğlu - polkovnik-leytenant
İmrəliyev Füzuli Şiraslan oğlu - polkovnik-leytenant
Qasımov Faiq Qaçay oğlu - polkovnik-leytenant (ölümündən sonra)
Qasımov Ramiz Vaqif oğlu - polkovnik-leytenant (ölümündən sonra)
Qebedov Elnur Ceerov oğlu - polkovnik-leytenant
Mirzəyev Anar Mehman oğlu - polkovnik-leytenant
Nadirov Rəşad Soltanağa oğlu - polkovnik-leytenant
Ağayev Vüqar Əhməd oğlu - mayor (ölümündən sonra)
Bağıyev Mirdamət Səristan oğlu - mayor
Bayramov Elbrus Eyvaz oğlu - mayor (ölümündən sonra)
Heydərov Amid Rəbbil oğlu - mayor (ölümündən sonra)
Həsənov Saleh Valeh oğlu - mayor
Hüseynquliyev Şahin Yusif oğlu - mayor
Hüseynov Zaur Rahat oğlu - mayor
Qaflanov Şixamir Oruc oğlu - mayor (ölümündən sonra)
Qasımov Anar Misir oğlu - mayor
Qurbanov Səfər Qurban oğlu - mayor
Quliyev Röyal İlham oğlu - mayor
Mansurov Elçin Elşən oğlu - mayor (ölümündən sonra)
Məmmədov Anar İbrahim oğlu - mayor
Orucov İlqar Rəhman oğlu - mayor
Səfərli Gündüz Ağamməd oğlu - mayor
Səfərov Elvin Sərraf oğlu - mayor
Şirinov Elnur Ramiz oğlu - mayor
Şükürov Anar Mehman oğlu - mayor (ölümündən sonra)
Abdullayev Rəşad Arif oğlu - kapitan (ölümündən sonra)
Babayev Nihad Akif oğlu - kapitan (ölümündən sonra)
Bağırlı Qəzənfər Kərim oğlu - kapitan
Bədəlov Nicad Mehman oğlu - kapitan
Əliyev Fərid Vaqif oğlu - kapitan
Həsənov Ceyhun Aydın oğlu - kapitan (ölümündən sonra)
Hudulov Ramazan İzzət oğlu - kapitan
Qasımlı Rəşad Məzahir oğlu - kapitan
Mahmudov Cavid Hilal oğlu - kapitan (ölümündən sonra)
Musibov Veysəl Yadullayeviç - kapitan (ölümündən sonra)
Noçuyev Surxay Əbdül oğlu - kapitan (ölümündən sonra)
Səmədov İsmayıl Məhəmməd oğlu - kapitan (ölümündən sonra)
Şıxnəbiyev Renat Güləmməd oğlu - kapitan
Ağayev Qəzənfər Mahmud oğlu - baş leytenant
Balacayev İzzət Zakir oğlu - baş leytenant
Behbudov Cavid Ədalət oğlu - baş leytenant
Bədəlov Valeh Vahid oğlu - baş leytenant (ölümündən sonra)
Hümbətov Azad Arif oğlu - baş leytenant (ölümündən sonra)
İbrahimli Adil Asəm oğlu - baş leytenant (ölümündən sonra)
Allahyarov Şahin Hüseynbala oğlu - baş gizir (ölümündən sonra)
Cəbrayılov Sübhan Rahim oğlu - baş gizir (ölümündən sonra)
Hüseynov Yaşar Əhəd oğlu - baş gizir
İsmayılov Camal Vidadi oğlu - baş gizir (ölümündən sonra)
Niftəliyev Mehrab Söhrab oğlu - baş gizir (ölümündən sonra)
Yusifli Azər Nazim oğlu - baş gizir (ölümündən sonra)
Əsgərli İntiqam Bayram oğlu - gizir (ölümündən sonra)
Vəliyev Elyar Arif oğlu - gizir (ölümündən sonra)
Cabbarov Orxan Rövşən oğlu - kiçik gizir (ölümündən sonra)
Əhmədov Yaşar Mirağa oğlu - kiçik gizir
Hüseynov Əli Rəşid oğlu - kiçik gizir
İbrahimli Nail Nəriman oğlu - kiçik gizir (ölümündən sonra)
Novruzov Amin Tacəddin oğlu - kiçik gizir (ölümündən sonra)
Zalov Fəqan Amil oğlu - kiçik miçman (ölümündən sonra)
Abdullazadə Azər Rizvan oğlu - əsgər
Əflətov Murad İlyas oğlu - əsgər
Yaqubov Vüsal Elşən oğlu - əsgər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2020-ci il*

# Xarici işlər naziri Ceyhun Bayramov İran Prezidenti Həsən Ruhani ilə görüşüb

**Dekabrın 9-da İran İslam Respublikasına rəsmi səfəri çərçivəsində xarici işlər naziri Ceyhun Bayramovun İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə görüşü keçirilib.**

Prezident Həsən Ruhani Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə səmimi salamlarını və xoş arzularını çatdırdı. Prezident Həsən Ruhani Azərbaycanın ərazilərinin işğaldan azad olunmasını məmnunluqla qeyd etdi. İranın hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyi vurğulandı.



Görüşdə iki ölkə arasında iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsinin əhəmiyyəti qeyd olundu. Qonşu və dost ölkələrimizin həyata keçirməyə çalışdığı beynəlxalq əhəmiyyətli iqtisadi layihə olan “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin tərkib hissəsi olan Rəşt-Astara dəmir yolunun inşasının sürətləndirilməsinin zəruriliyi vurğulandı.

Nazir Ceyhun Bayramov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səmimi salamlarını İran İslam Respublikasının Prezidentinin diqqətinə çatdırdı. Nazir dost və qonşu İranın Azərbaycanın ərazi bütövlüyünə verdiyi dəstəyi yüksək qiymətləndirdi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması və sərhədin bərpa olunmasının ölkələrimiz arasında əməkdaşlıq layihələri üçün yeni imkanlar açdığı qeyd olundu. Azərbaycan və İran arasındakı sərhəd dostluq və iqtisadi inkişaf sərhədi adlandırıldı.

# Milli Məclisin komitə iclası keçirilib



**Dekabrın 9-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında dörd məsələyə baxılıb.**

AZƏRTAC xəbər verir ki, komitənin sədri Tahir Mirkişili əvvəlcə 44 gün davam edən Vətən müharibəsində müzəffər Azərbaycan Ordusunun qazandığı tarixi Qələbə münasibətilə tədbir iştirakçılarını təbrik edib. Vurğulayıb ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə Azərbaycan dövləti həm hərbi, həm siyasi, həm də diplomatik cəbhədə mühüm və böyük tarixi zəfər əldə edib. Qarabağda düşmənin beli qırılıb, başı əzilib. Ermənistanın işğalçı ordusunun şəxsi heyətinin mühüm hissəsi məhv edilib.

Komitə sədri bildirib ki, Azərbaycanın qalibiyyət əldə etməsində iqtisadi potensialın çox ciddi rolu olub. İqtisadi güc qələbələrə və hərbi gücə transformasiya olunub. Qələbə qarşımızda yeni çağırışlar qoyub. Tahir Mirkişili deyib ki, biz Milli Məclis olaraq, qanunverici orqan olaraq qarşımızda duran əsas çağırışlara - yeni qanunların qəbulu, mövcud qanunların təkmilləşdirilməsi və yeni mexanizmlərin işlənib hazırlanmasına təşəbbüs göstərməliyik. Əminəm ki, Azərbaycan dövlətinin bundan sonra da güclənməsi, ölkə Prezidentinin qarşıya qoyduğu hədəflərə nail olunması üçün çağırışlar istiqamətində əlimizdən gələni edəcəyik.

Sonra iclasda iştirak edən Azərbaycan Respublikası Mərkəzi Bankının sədri Elman Rüstəmov gündəlikdəki iki məsələni - “Əmanətlərin tam sığortalanması haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) və “Əmanətlərin sığortalanması haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) şərh edib. Öncə erməni işğalçılarına qarşı mübarizədə qazanılmış müqəddəs Zəfərlə bağlı təbriklərini çatdıran Mərkəzi Bankın sədri qeyd edib ki, son 17 il ərzində aparılan düşünülmüş siyasət Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına şərait yaradıb. İndi işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində ciddi çağırışlar var və bu prosesdə maliyyə sektoru daha ciddi rol oynamalıdır. Sonra Əmanətlərin Sığortalanması Fondunun fəaliyyəti barədə ətraflı məlumat verən Elman Rüstəmov deputatların nəzərinə çatdırıb ki, ölkəmizdə 2016-cı ilin martından tətbiq olunan əmanətlərin tam sığortalanması qlobal iqtisadiyyatda baş verən proseslər fonunda ölkədə maliyyə sabitliyinin qorunmasında, bank sistemində sabitliyin tam təmin edilməsində, əmanətçilərin bank sisteminə etibarının artırılmasında mühüm rol oynayıb.

İclasda bildirilib ki, 4 il 9 ay ərzində qüvvədə olan bu qanunun müddəti iki dəfə uzadılıb, sonuncu müddət cari ilin dekabrın 4-də başa çatıb. Təqdim olunmuş layihədə qanunun qüvvədə olma müddətinin 2021-ci ilin 5 aprel tarixinədək uzadılması təklif olunur.

Bildirilib ki, beynəlxalq təcrübə əmanətlərin tam sığortalanması sxemindən çıxış üçün effektiv strategiyanın olmasının vacibliyini göstərir. Bununla əlaqədar “Əmanətlərin sığortalanması haqqında” qanun layihəsində fiziki şəxslərin qorunan əmanətləri üzrə kompensasiya məbləğinin 30 min manatdan 100 min manata (xarici valyutada 100 min manat ekvivalentinədək) artırılması təklif olunur. Bu müddəa 2021-ci ilin 5 aprel tarixindən qüvvəyə minəcək. Həmçinin fərdi sahibkarlıqla məşğul olan fiziki şəxslərin depozitlərinin sığortalanması (kompensasiya məbləği 20 min manat müəyyən edilməklə) təklif olunur.

Elman Rüstəmov bildirib ki, fərdi sahibkarların banklardakı vəsaitlərinin sığortalanması təcrübəsi inkişaf etmiş və inkişaf etməkdə olan bir sıra ölkələrdə, o cümlədən böyük iyirmilik ölkələrində, Qazaxıstan, Rusiya, Polşa, Malayziya, Cənubi Koreya və Estoniyada tətbiq edilib.

Yeni qanun layihəsinə görə, notariusların depozit hesablarında qalmış fiziki şəxslərə məxsus pul vəsaitlərinin tam məbləğdə sığortalanması da nəzərdə tutulur ki, bu dəyişiklik notariuslar vasitəsilə həyata keçirilən alqı-satqı əməliyyatları, xüsusilə ev alqı-satqısı zamanı maliyyə xidməti istehlakçılarının hüquqlarının qorunmasını daha da gücləndirəcək.

Qanun layihələrinin müzakirəsində İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli, deputatlar Vahid Əhmədov, Vüqar Bayramov, Mahir Abbaszadə, Ziyad Səmədzadə, Rüfət Quliyev, Aydın Hüseynov, Məzahir Əfəndiyev çıxış edərək rəy və təkliflərini bildiriblər. Bütün çıxışlarda Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında müzəffər Azərbaycan Ordusunun qazandığı şanlı Qələbə xüsusi qeyd olunub və bölgədə yaranmış yeni reallıqla əlaqədar ölkəmizdə görülməli olan işlər ətraflı təhlil edilib, təkliflər səsləndirilib.

İclasda “Mühasibat uçotu haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) Milli Məclis Aparatının İqtisadi və sosial qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov təqdim edib. Bildirilib ki, qanun layihəsi kommersiya təşkilatları tərəfindən mühasibat uçotunun aparılması və maliyyə hesabatlarının tərtibi ilə bağlı müddəaların təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Layihədə orta sahibkarlıq subyektlərində mühasibat uçotunun aparılması və maliyyə hesabatlarının tərtib edilməsi qaydasının iri sahibkarlıq subyektləri ilə eyni hüquqi rejimə gətirilməsi nəzərdə tutulur.

Deputatlar qanun layihəsinə edilən dəyişikliyi müsbət qiymətləndiriblər.

Komitə iclasının yekununda Vüqar Tapdıq oğlu Gülməmmədovun Azərbaycan Respublikası Hesablama Palatasının sədri vəzifəsinə namizədliyi barədə rəyə baxılıb. Bu barədə məlumat verən Tahir Mirkişili bildirib ki, Hesablama Palatasının son illərdə apardığı audit fəaliyyəti nəticəsində dövlət büdcəsinə 130 milyon manatdan çox vəsait bərpa olunub. Qurumun işində mühüm keyfiyyət dəyişiklikləri özünü göstərir. Hesablama Palatasına göndərilən bütün sorğular vaxtında cavablandırılır. 2017-ci ildən bəri “Dövlət auditi” adlı jurnal nəşr olunur. Dövlət büdcəsinin tərtibi və icrası ilə bağlı Milli Məclisə təqdim olunan sənədlərin yüksək peşəkarlıqla hazırlandığı nəzərə çarpır və s. Bütün bu proseslərin təkmilləşdirilməsində Vüqar Gülməmmədovun xidmətləri var. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi “Azərbaycan Respublikası Milli Məclisin komitələri haqqında” Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə əsasən, Vüqar Tapdıq oğlu Gülməmmədovun Azərbaycan Respublikası Hesablama Palatasının sədri vəzifəsinə namizədliyini məqsədəuyğun hesab edir.

Komitə üzvləri məsələyə müsbət münasibət bildirdikdən sonra Vüqar Gülməmmədov göstərilən etimada görə təşəkkür edib.

İclasda aparılan fikir mübadiləsinin yekununda müzakirə edilən məsələlərin hamısı Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Ceyhun Bayramov İran İslam Şurası Məclisinin sədri və İran xarici işlər naziri ilə görüşüb

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun İran İslam Respublikasının İslam Şurası Məclisinin sədri Məhəmməd Bağer Qalibaf ilə görüşü olub.**

İslam Şurası Məclisinin sədri Azərbaycan ərazilərinin azad edilməsini sülh və davamlı təhlükəsizliyin həyata keçirilməsi istiqamətində vacib addım adlandırdı. O, İran və Azərbaycan arasında hərtərəfli əməkdaşlıq səviyyəsinin artırılmasının əhəmiyyətini qeyd edərək, bunun üçün mövcud müxtəlif potensiallardan istifadə olunmasının önəmini vurğulayıb.

İslam Şurası Məclisinin sədri Məhəmməd Bağer Qalibaf Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, mədəni və digər əməkdaşlıq səviyyələrinin, habelə sərhədlərarası əməkdaşlığın artırılmasından bəhs edib.

Nazir Ceyhun Bayramov İranın nüvə aliminin terror nəticəsində qətlə yetirilməsi ilə bağlı başsağlığı verib. O, Azərbaycanın terrorçuluğun bütün forma və təzahürlərini pislədiyini qeyd edib və bu terror aktının qəbuledilməz olduğunu bildirib.

Nazir Azərbaycanın 44 gün davam edən Vətən müharibəsindən bəhs edərək, İran İslam Respublikasının yüksəksəviyyəli nümayəndələrinin, o cümlədən İran İslam İnqilabı Ali Rəhbərinin, Prezidentin, eləcə də deputatların dəstək mövqelərini məmnunluqla vurğulayıb.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

❖ ❖ ❖

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov İran İslam Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin xarici işlər naziri Məhəmməd Cavad Zərif ilə görüşüb.

Görüş zamanı nazirlər bölgədəki cari vəziyyəti, xüsusilə də 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanmasından sonra mövcud vəziyyəti müzakirə ediblər.

Nazir Ceyhun Bayramov qarşı tərəfə Azərbaycan torpaqlarının işğaldan azad olunması ilə nəticələnən 44 günlük Vətən müharibəsi ilə bağlı ətraflı məlumat verib. Nazir Məhəmməd Cavad Zərif işğal edilmiş ərazilərin azad olunmasını alqışlayıb.

Tərəflər mehriban qonşuluq çərçivəsində ikitərəfli əməkdaşlıq əlaqələrinin inkişafı, eləcə də qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Qardaş qardaşın yanındadır

*Əvvəli 1-ci səh.*

İki il əvvəl Trans-Anadolu qaz boru kəmərinin (TANAP) inşası başa çatmışdır. TANAP “Cənub qaz dəhlizi”nin mərkəzi komponentidir. Bu layihənin məqsədi “Şahdəniz” qaz-kondensat yatağını tammiqyaslı işlətmək, bu zaman hasil ediləcək təbii qazı genişləndirilən “Cənubi Qafqaz qaz boru kəməri” (Bakı-Tbilisi-Ərzurum kəməri), TANAP və Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə Türkiyə və Cənubi Avropaya ixrac etməkdir. Eyni zamanda yeni nəhəng layihənin köməyi ilə Avropaya qaz nəqlinin təhlükəsizliyi və artırılması təmin ediləcək. “Cənub qaz dəhlizi”nin inşası artıq başa çatmışdır. Dəhliz vasitəsilə Avropaya qazın nəqlinə yaxın vaxtlarda start veriləcək. Bu layihənin həyata keçirilməsində Türkiyə şirkətləri mühüm rol oynamışdır.

Azərbaycan və Türkiyə qarşılıqlı münasibətlərin həmişə ən yüksək səviyyədə olması səbəbindən təbii müttəfiqlərdir. 2010-cu ilin avqustunda imzalanmış Türkiyə-Azərbaycan strateji əməkdaşlıq sazişi iki ölkə arasında davamlı olaraq inkişaf edən əlaqələrin zirvəyə çatması mənasına gəlir.

Azərbaycanın hələ milli müstəqilliyini bərpa etməzdən əvvəl qarşılaşdığı erməni təcavüzü Türkiyənin diqqətindən kənarda qala bilməzdi. Ankara münaqişə başlayandan bəri ölkəmizin haqq işini birmənalı şəkildə müdafiə etmək xətti götürmüşdür. Doğrudur, 1990-cı illərdə Türkiyə indiki kimi güclü dövlət deyildi və ona görə də qardaşı Azərbaycana yetərli dəstək verə bilmirdi. Bununla belə, Türkiyə rəhbərliyi məqamı gələndə təcavüzkar Ermənistana həddini göstərirdi. Rəsmi İrəvan Ankaradan ilk güclü zərbəni 1992-ci ilin aprelində Kəlbəcər rayonu qəsb ediləndə almışdır. O vaxt Türkiyə Ermənistanla sərhədini bağladı və bəyan etdi ki, sərhəd yalnız Azərbaycan torpaqlarının işğalına son qoyulduqdan, eləcə də İrəvan “erməni soyqırımı”nın beynəlxalq səviyyədə tanıtmaq cəhdlərindən əl çəkəndən sonra açıla bilər. Ermənistan Türkiyə tərəfindən qanunsuz olaraq mühasirəyə alınması barədə cəfəng iddialar irəli sürməyə başladı və bu yolla havadarlarının təzyiqi ilə Ankaranı tutduğu mövqedən geri çəkilməyə cəhd göstərdi. Amma əbəs yerə. Türkiyə-Ermənistan sərhədi hələ də bağlıdır.

2002-ci ildə Türkiyədə Rəcəb Tayyib Ərdoğanın liderlik etdiyi Ədalət və İnkişaf Partiyası hakimiyyətə gələndən sonra Bakı-Ankara münasibətləri tarixində keyfiyyətcə yeni səhifə açıldı. İki qardaş ölkə bütün sahələrdə olduğu kimi, hərbi-texniki sahədə də sıx işbirliyi qurdu. Məsələ burasında idi ki, düşmən hərbi qarşıdurmada özünü qalib kimi aparır və güclü havadarlarının köməyi ilə əldə etdiyi mövqeləri axıradək qoruyub saxlayacağına ümid edirdi. Ona görə də İrəvan Ermənistan-Azərbaycan münaqişəsinin dinc vasitələrlə tənzimlənməsinə barmaqarası baxır, ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə keçirilən danışıqları sonsuzluğadək uzatmağa çalışırdı, hərçənd Prezident İlham Əliyev qarşı tərəfə və onun havadarlarına təkrar-təkrar xəbərdarlıq edirdi ki, problemin hərbi vasitələrlə həlli istisna olunmur. Beynəlxalq vasitəçilər isə hadisələrin gedişini seyr etməklə kifayətlənir, təcavüzkarla təcavüz qurbanına eyni cür baxır, hətta Azərbaycanı mövcud reallığı qəbul edib ərazisinin 20 faizinin işğalı ilə barışmağa və Ermənistanla əlaqələri normallaşdırmağa çağırırdı.

Təbii ki, hərbi təcavüzə məruz qalmış, ərazisi işğal olunmuş, yüz minlərlə vətəndaşı yurd-yuvasından didərgin düşmüş Azərbaycan belə bir vəziyyətlə barışa bilməzdi. İşğalçı tərəfi sülhə məcbur etmək üçün hərbi gücə əl atmaqdan başqa yol qalmamışdı. Odur ki, müasir dövrün tələblərinə cavab verən ordu qurulması prioritet vəzifə kimi qarşıya qoyuldu. Dövlətin hərbi büdcəsi nəzərəçarpacaq dərəcədə artırıldı, müxtəlif xarici ölkələrdən silah-sursat, hərbi texnika alındı. Hərbi kadrların hazırlanmasında və Silahlı Qüvvələrimizin müasir texnologiyalarla təchiz olunmasında türkiyəli mütəxəssislər mühüm rol oynadılar. İki ölkənin silahlı qüvvələrinin iştirakı ilə birgə hərbi təlimlər müntəzəm xarakter aldı.

Ordu quruculuğu istiqamətində görülən işlər getdikcə özünü göstərməyə başladı. Düşmən 2016-cı ilin aprelində və bu ilin iyulunda ordumuzun gücünü öz üzərində hiss etdi, amma yenə də anlamadı ki, Azərbaycan 27 il əvvəlki Azərbaycan deyil və məqam gələndə ordu işə qarışacaq. Nəhayət, sentyabrın 27-də düşmənin növbəti hərbi təxribatına cavab olaraq Azərbaycan Silahlı Qüvvələri işğal altında qalan torpaqları düşməndən təmizləmək üçün əks-hücuma keçdi və beləliklə, İkinci Qarabağ müharibəsi - Vətən müharibəsi başladı. 44 gün davam etmiş müharibə rəşadətli ordumuzun möhtəşəm qələbəsi ilə başa çatdı, Ermənistan isə Azərbaycanın şərtlərini qəbul edərək biabırçı məğlubiyyətə uğradı. Azərbaycanın zəfəri heç kimi təəccübləndirmədi: dünya Azərbaycan Silahlı Qüvvələrinin timsalında XXI əsrin ordusunu gördü.

Vətən müharibəsinin gedişində Türkiyə həmişə qardaşı Azərbaycanın yanında oldu, çünki Qarabağ problemini öz problemi hesab edirdi. Təcavüzkar Ermənistanın havadarlarının təzyiqləri ilə qarşılaşan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qətiyyətlə bildirirdi ki, onun ölkəsi ədalətin, haqq işinin tərəfindədir və ona görə də Azərbaycanı dəstəkləməkdə davam edəcək. O, xəbərdarlıq edirdi ki, Ankara Ermənistan-Azərbaycan müharibəsinə üçüncü tərəfin qarışmasına dözməyib hadisələrin gedişinə dərhal müdaxilə edəcək. Özü də Türkiyə mövqeyində kifayət qədər ciddi idi. Məlum olduğu kimi, Vətən müharibəsindən qabaq Azərbaycanda keçirilmiş hərbi təlimlərə qatılmış Türkiyənin hərbi aviasiyası ölkəmizi tərk etməmişdi; qardaş ölkənin hərbi komandanlığı Qarabağ cəbhəsində hadisələrin gedişini izləyirdi.

Hazırda Ermənistan-Azərbaycan cəbhəsində atəşin dayandırılmasına baxmayaraq, problemin birdəfəlik həll olunduğunu söyləmək hələ tezdir. İndi atəşkəs rejiminin davamlılığını təmin etmək lazımdır. Bu işi türkiyəli hərbçilər rusiyalı sülhməramlılarla birgə görəcəklər. İki tərəf imzalanmış sazişə uyğun olaraq tezliklə atəşkəsin monitorinqi mərkəzi yaradacaq. Yəni Türkiyə yenə də qardaşının yanındadır.

Şübhə etməmək olar ki, Azərbaycan və Türkiyə bundan sonra da birlikdə olacaq, sevinclərini də, dərdlərini də bölüşəcəklər.

***Allahverdi MEHDİYEV, “Azərbaycan”***

# Azərbaycan ilə İtaliya arasında müxtəlif sahələrdə ikitərəfli əməkdaşlıq müzakirə edilib



Dekabrın 8-də xarici işlər naziri Ceyhun Bayramov İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi, Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın həmsədri Manlio Di Stefanonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Ceyhun Bayramov cari ilin 19-21 fevral tarixlərində Prezident İlham Əliyevin İtaliya Respublikasına tarixi dövlət səfərini xatırladaraq, səfər zamanı imzalanmış “Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın Gücləndirilməsinə dair Birgə Bəyannamə” ilə tərəflərin bir-birilərini strateji tərəfdaş kimi qəbul etdiklərini söyləyib. Nazir Azərbaycan torpaqlarının işğaldan azad olunması ilə nəticələnən 44 günlük Vətən müharibəsi barədə qarşı tərəfə ətraflı məlumat verib. O, ölkələrimiz arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu, bu əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini bildirib.

Tərəflər Azərbaycanın Avropa İttifaqı ilə tərəfdaşlığı, o cümlədən enerji və nəqliyyat layihələrində, xüsusilə “Cənub qaz dəhlizi” layihəsində iştirakı ilə bağlı fikir mübadiləsi aparıblar. Dövlət katibi Manlio Di Stefano regionda baş verən hadisələrlə bağlı yerində məlumat alınmasının daha faydalı olduğunu, bu səbəbdən Azərbaycana səfər etdiyini söyləyib.

Görüş zamanı tərəflər həmçinin ölkələrimiz arasında müxtəlif sahələrdə ikitərəfli əməkdaşlıq perspektivləri ilə bağlı məsələləri müzakirə ediblər.

# Almaniyanın “ZDF” kanalında işğaldan azad olunmuş Ağdam və Füzuli rayonlarından reportaj yayımlanıb

**Almaniyanın “ZDF” telekanalında Azərbaycanın işğaldan azad olunmuş Ağdam və Füzuli rayonlarından reportaj yayımlanıb.**

Kanalın Qarabağ bölgəsinə ezam olunmuş müxbiri Yörq Braze Azərbaycanın 1990-cı illərdə itirdiyi əraziləri bu yaxınlarda geri qaytardığını qeyd edir. Ağdam və Füzuli rayonlarında yerli sakinlərlə söhbət edən müxbir bildirir ki, getdikcə daha çox azərbaycanlı bu regiona qayıdır. Həmin sakinlərdən biri, hələ Birinci Qarabağ müharibəsində iştirak etmiş Hamlet İbrahimov ermənilərin bu ərazilərdə törətdiyi vəhşiliklərdən və Vətən müharibəsinin gedişindən bəhs edir. “Bu dəfə biz qələbə qazana bildik”, - deyən Hamlet qənimət götürülmüş iki erməni tankını fəxrlə göstərir. İyirmi səkkiz il bundan əvvəl Qarabağda ermənilərə qarşı döyüşən və həmin müharibəni uğursuzluqla başa vuran Hamletin indiki məmnuniyyəti göz qabağındadır. O deyir: “Baxın, mərmilər də içəridədir, biz tankları bütün sursatı ilə birgə ələ keçirmişik. Ermənilər nələri var idisə, atıb qaçıblar”.











Reportajda Ağdam şəhərinin dağıntıları da göstərilir. Jurnalist qeyd edir ki, razılaşmaya əsasən Azərbaycanın döyüşsüz nəzarətə götürdüyü üç rayondan biri olan Ağdamın şəhər mərkəzi “ruhlar şəhəri” təəssüratını yaradır. Bura 1993-cü ildə Ermənistan tərəfindən işğal edilmiş, yerli əhali şəhəri tərk etdikdən sonra talan olunmuş və indiyədək kimsənin yaşamadığı bir ərazidir. Bu şəhəri həmçinin “Qafqazın Xirosiması” adlandırırlar.

Reportajda vurğulanır ki, 27 ildən sonra geri qayıdan şəhər sakini Məryəm İsmayılova da qürurludur. O, məscidin minbərindən öz yaşadığı məhəlləsini göstərir və evlərinin tamamilə dağıdıldığını söyləyir. Bildirir ki, şəhərdə yeganə salamat qalan tikili məsciddir. M.İsmayılova göz yaşları içində deyir ki, vaxtilə Ağdam çox gözəl şəhər olub, lakin indi həmin gözəllikdən əsər-əlamət qalmayıb. O, qeyd edir ki, ermənilər şəhərə hücum edəndə evlərindən heç nə götürə bilməyib, bütün əşyalarını orada qoyaraq canlarını xilas etməyə çalışıblar. Qardaşı və həyat yoldaşı həmin vaxt yaralanaraq itkin düşüblər, onlardan indiyədək heç bir xəbər yoxdur. Onlar minlərlə itkin düşəndən yalnız ikisidir: “O vaxt bizi niyə öldürürdülər, mənim həyat yoldaşımın günahı nə idi? Oğlum mənə ermənilərin əsirləri qətlə yetirdikləri videoları göstərir. Haradan bilim, bəlkə mənim də həyat yoldaşımı o cür işgəncələrə məruz qoyub və qətlə yetiriblər?”

Reportajda deyilir ki, 1990-cı illərə aid digər bir “ruhlar şəhəri” olan Füzulidə Hamlet dağıdılmış məscidin xarabalığı arasında gəzişir. O, alman jurnalistə vaxtilə Ağdam məscidi böyüklükdə olan Füzuli məscidinin yerini və həmin məsciddən qalan minarənin qalığını göstərir: “Bu, məscidin minarəsi də Ağdam məscidinin minarəsi kimi hündür olub. Lakin ermənilər onu məhv ediblər. Füzuli məscidi böyük olub, lakin ona qarşı edilənlərin nəticəsi budur, daş-daş üstündə qalmayıb”.

Hamlet onu da bildirdi ki, Azərbaycan Prezidentinin dediyi kimi, ermənilər bizimlə bizim ölkəmizdə bizim dövlətin vətəndaşı kimi bizim bayrağımızın altında və bizim pasportla yaşaya bilərlər.

Sonda müxbir hələ müharibənin acısının təzə olduğunu və ətrafda dağıntıların çox olduğunu qeyd edir.

# "YAŞAT" humanizm prinsiplərinə sadiqliyin təzahürüdür

*Əvvəli 1-ci səh.*

Yaralı döyüşçülərə ilkin və zəruri yardım etmək üçün xəstəxanada ehtiyac duyulan tibbi ləvazimatlar tədarük edildi. Cəbhəyə maşınlarla dolu müxtəlif növ əsgər payı göndərildi. Damarlarında Azərbaycan qanı axan hər kəs maddi imkanı çatdığı qədər Silahlı Qüvvələrə Yardım Fonduna pul köçürdü.

Artıq bir aydır Vətən müharibəsi Azərbaycanın qələbəsi ilə başa çatsa da, bu gün də xidməti davam edən əsgərlərimizə, eləcə də şəhid və qazilərimizin ailələrinə yardımlar edilir. Ölkə vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, vətəndaş cəmiyyəti, biznes dairələri bu kateqoriyadan olan insanlara mümkün dəstəyi göstərmək üçün əllərindən gələni əsirgəmirlər. Azərbaycan xalqı xeyirxahlıq, humanizm prinsiplərinə uyğun olaraq təmənnasız yardım ənənələrini davam etdirir, şəhid ailələrinin, hərbi əməliyyat iştirakçılarının zəruri ehtiyaclarının təmin edilməsinə xüsusi həssaslıqla yanaşır və hər bir vətəndaş bu məsələyə öz dəyərli töhfəsini verməyə çalışır.

Məhz bu reallığı nəzərə alaraq şəhid ailələrinin, hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması, bunun üçün müvafiq platformanın yaradılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) yaradılması haqqında" Fərman imzaladı.

Fond Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara və şəhid olmuş şəxslərin ailə üzvlərinə işğaldan azad olunmuş ərazilərdə xidməti vəzifələrini yerinə yetirərkən, həmçinin hərbi əməliyyatlar bitdikdən sonra onun nəticələrinin aradan qaldırılmasında iştirak etməsi nəticəsində əlilliyi müəyyən olunmuş dövlət qurumlarının əməkdaşlarına və ya həlak olmuş əməkdaşların ailə üzvlərinə müvafiq yardım göstərəcək.

Məlumdur ki, Azərbaycanda şəhid ailələrinin, müharibə əlillərinin, veteranların, hərbi qulluqçuların sosial müdafiəsinin təmin edilməsi, onların rifah halının yüksəldilməsi və problemlərinin həlli dövlət siyasətinin mühüm tərkib hissəsini təşkil edir. Dövlətin sosial siyasətinin mərkəzində duran əsas məsələlərdən biri məhz bu istiqamətdə fəaliyyətin yüksək səviyyədə təşkil olunmasıdır. Hazırkı dövrə kimi Azərbaycan dövləti şəhid ailələrinə, müharibə əlillərinə və digər bu kateqoriyadan olan şəxslərə birdəfəlik yardım da daxil olmaqla, maliyyə dəstəyinin göstərilməsi, mənzillərlə, minik avtomobilləri ilə təminatı, müalicəsi, sosial durumunun yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirib. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin tapşırığına uyğun olaraq bu kateqoriyadan olanlar hərtərəfli sosial təminat sistemi ilə əhatə olunublar. Prezidentin aylıq təqaüdü və digər sosial ödənişlərlə (pensiya, müavinət) təmin edilməklə yanaşı, həmin vətəndaşların rifahının yaxşılaşdırılmasına xidmət edən bir çox sosial proqramlar da icra edilir. Şəhid ailələri və müharibə əlilləri mənzil və avtomobil təminatı, habelə birdəfəlik sığorta ödənişi ilə yanaşı, orta hesabla aylıq əsasda 700 manat sosial ödəniş alırlar. Bu ödənişlərin daha da təkmilləşdirilməsi, onların sosial müdafiəsinin daha da yaxşılaşdırılması istiqamətində mütəmadi iş aparılır. İndiyədək bu kateqoriyadan olan şəxslərə 9000-ə yaxın mənzil və fərdi ev, habelə 7000-dən çox avtomobil verilib. Bu proqram hazırda uğurla davam etdirilir.

Ancaq bütün bunlarla yanaşı, ayrı-ayrı vətəndaşlarımızın şəhid və qazilərimizin ailələrinə bu və ya digər formada yardım etmək istəyinin kütləvi olması həmin sahədə bir koordinasiya fəaliyyətini zəruri edir ki, yeni yaradılan "YAŞAT" Fondu da məhz bu funksiyanı yerinə yetirəcək.

Fondun vəsaitləri Azərbaycan vətəndaşlarının, xarici ölkələrdə yaşayan soydaşlarımızın, digər fiziki və hüquqi şəxslərin könüllü olaraq maliyyə vəsaiti şəklində verdiyi yardımlar və qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşacaq.

Fondun vəsaitinin sərəncamçısı olan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev bildirib ki, fondun fəaliyyətində şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsi, həmçinin fondun vəsaitinin formalaşması və idarə olunmasına nəzarət məqsədilə tanınmış ictimaiyyət nümayəndələrinin daxil olduğu 11 nəfərlik Himayəçilik Şurası yaradılıb. Lakin elə bir sistem, portal qurulacaq ki, 50 milyonluq azərbaycanlının hər birinin bu fonda nəzarət etmək imkanı olacaq: "Fonda ictimai nəzarət bütün azərbaycanlıların iştirakı ilə olacaq. İstənilən şəxs fondun rəsmi internet səhifəsinə daxil olub, onun fəaliyyəti ilə bağlı hesabatı görə biləcək. İstəyərsə sorğu göndərib hesabatla bağlı daha detallı məlumat alacaq. Elektron sistem, portal elə qurulacaq ki, hər bir vətəndaş bu fondun ictimai nəzarətçisi olsun. Çünki bu fonda göndərilən ianələrin təyinatı bizim üçün son dərəcə məsuliyyətlidir. "ASAN xidmət" olaraq bu işi maksimum dərəcədə şəffaflıqla həyata keçirəcəyik. Fondun xərcləri tam şəffaf formada müəyyən edilməli, ünvana çatmalı və bunu hər kəs görə bilməlidir".

Fondun vəsaitləri şəhid ailəsi statusu alana və ya əlilliyi müəyyən edilənədək götürülən istehlak kreditlərinin və digər borc öhdəliklərinin qarşılanmasına, müalicə və psixoloji dəstək xərclərinin, təhsillə bağlı xərclərin ödənilməsinə, məişət şəraitinin yaxşılaşdırılmasına və digər istiqamətlərə yönəldiləcək.

"YAŞAT" Fondunun yaradılması dövlətimizin humanizm prinsiplərinə, əhalinin sosial təminatının və rifah halının daha da yaxşılaşdırılması siyasətinə sadiqliyinin, ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara və şəhid olmuş şəxslərin ailə üzvlərinə xüsusi həssas münasibətinin növbəti əyani təzahürüdür. "YAŞAT" Fondunun yaradılması, sadəcə, belə ailələrin sosial problemlərinin həllinə deyil, cəmiyyətimizdə yardımlaşma ruhunun möhkəmlənməsinə də töhfə verəcək.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# ASK ICCIA tərəfindən həyata keçirilən işləri dəstəkləyir






İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasının (ICCIA) təşəbbüsü ilə 8 dekabr 2020-ci il tarixində ICCIA Baş katibi Yusif Həsən Xələvi və Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev arasında onlayn videogörüş keçirilmişdir.

ASK prezidenti M.Musayev bu görüşün keçirilməsi təşəbbüsünə görə İCCİA Baş katibinə öz dərin təşəkkürünü bildirmiş, Azərbaycan Respublikasının Müzəffər Ali Baş Komandanı - Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuzun 27 sentyabrdan başlayaraq 44 günlük uğurlu Vətən müharibəsinin zəfər çalmasını, erməni işğalına son qoyularaq tarixi ərazilərimizin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərqərar olunması barədə məlumat vermişdir.

ASK prezidenti bu qələbə ilə ölkəmiz üçün artıq yeni sosial-iqtisadi mərhələnin, quruculuq prosesinin başlanıldığını bildirmiş və bu prosesə digər ölkələrlə yanaşı, İslam ölkələrindən olan sahibkarların, xarici sərmayənin cəlb edilməsinin aktuallığını dilə gətirmiş, bu istiqamətdə birgə konfrans və digər tədbirlərin keçiliməsi təşəbbüsünü irəli sürmüşdür. Bununla yanaşı, M.Musayev qonaqları Azərbaycanın əlverişli coğrafi mövqeyi, iqtisadi sektorları, eləcə də ölkəmizdə istehsal olunan kənd təsərrüfatı məhsullarının İslam ölkələrinə ixracı potensialı haqqında ətraflı məlumatlandırmışdır.

ICCIA Baş katibi cənab Yusif Həsən Xələvi Azərbaycan xalqını qələbə münasibətilə təbrik etmiş və bu müharibədə şəhid olmuş soydaşlarımıza Allahdan rəhmət diləmişdir.

Daha sonra Y.H.Xələvi hazırda ICCIA-nın effektiv beynəlxalq quruma çevrilməsi üzərində çalışdığını, bu qurumun İslam ölkələrində önəmli investisiya mühərriki rolunu oynaması, ayrı-ayrı ölkələrin sosial-iqtisadi inkişafı üçün müvafiq siyasi, strateji sənədlərin hazırlanmasında dəstək verilməsini, habelə bu ölkələrdə özəl sektor, xüsusən də kiçik və orta sahibkarlığın inkişafı üçün təsirli platformaya çevrilməsinə səy göstərdiyini və bu sahədə qurum qarşısında 28 məqsədin müəyyən edildiyini bildirmişdir. O, bu məqsədlərə nail olunması üçün ICCIA-ya üzv ölkələrin potensialına və rəqabət üstünlüklərinə uyğun olaraq onların dünyada tanınmış biznes mərkəzlərə çevrilməsi üçün müxtəlif biznes forumların təşkil olunacağını, bu ölkələrin qlobal "hub"lara çevrilməsinin planlaşdırıldığını qeyd etmişdir. O, nümunə olaraq, məsələn, gələn ildən etibarən İordaniyanın Amman şəhərində rəqəmsal texnologiyalılara dair "hub"ın (mərkəzin) yaradılması üçün müvafiq mövzulu forumların keçiriləcəyini, eyni zamanda İndoneziyada kofe, çay və kakao istehsalı üzrə forumların, Pakistanda isə Dayanıqlı turizm hubının yaradılması üçün müvafiq forum və digər tədbirlərin keçiriləcəyini qeyd etmişdir. Y.H.Xələvi bu mənada Azərbaycan Respublikasının coğrafi mövqeyi və ənənəvi rəqabət üstünlüyü amillərini nəzərə almaqla qlobal "hub" rolunu oynaya biləcəyini söyləmiş və ASK prezidenti ilə bu xüsusda fikir mübadiləsi etmişdir.

ASK Prezidenti qeyd olunan məsələnin böyük əhəmiyyət kəsb etdiyini bildirərək erməni işğalından məhsuldar torpaqların azad edilməsi baxımından ölkəmizin orqanik kənd təsərrüfatının inkişafı üzrə qlobal "hub"a çevrilə biləcəyini ifadə etmiş və bu barədə aidiyyəti dövlət orqanları ilə bu məsələnin müzakirə olunacağını diqqətə çatdırmışdır.

Sonda Y.H.Xələvi Türkiyə Respublikasının İstanbul şəhərində yaradılacaq Arbitraj Mərəkəzi barədə geniş məlumat vermiş və bu mərkəzin bütün İslam ölkələrini əhatə edəcəyini bildirmişdir.

M.Musayev ICCIA tərəfindən həyata keçiriləcək bu işin ASK tərəfindən tam dəstəkləndiyini Yusif Həsən Xələvinin diqqətinə çatdırmışdır.

# Müdafiə Nazirliyi "YAŞAT" Fonduna vəsait köçürüb

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun yaradılması haqqında" Fərmana əsasən yaradılan "YAŞAT" Fonduna Müdafiə Nazirliyinin rəhbərliyi bir aylıq pul təminatının 50 faizi məbləğində vəsait köçürüb.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildiriblər.

# Fövqəladə Hallar Nazirliyi işçilərinin həmkarlar ittifaqı "YAŞAT" Fonduna 50 min manat köçürüb

Bu il sentyabrın 27-dən başlayaraq Ermənistanın son aylarda cəbhə bölgəsində törətdiyi hərbi təxribatlara cavab olaraq və onun təcavüzkar siyasətinə son qoymaq məqsədilə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz əks-hücum əməliyyatları həyata keçirib. Ermənistan silahlı qüvvələri tərəfindən 28 ildən artıq işğal edilmiş tarixi doğma torpaqlarımızın azad olunması və ərazi bütövlüyümüzün təmin edilməsi ilə nəticələnən və Azərbaycan Ordusunun misilsiz qəhrəmanlıq göstərdiyi 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanılıb.

AZƏRTAC Fövqəladə Hallar Nazirliyinin (FHN) saytına istinadla xəbər verir ki, FHN işçilərinin həmkarlar ittifaqı işğal altındakı torpaqlarımızın Prezident İlham Əliyevin qətiyyəti, düşünülmüş siyasəti və Ordumuzun qəhrəmanlıq əzmi sayəsində düşmən tapdağından azad olunması, 30 ilə yaxın doğma yurdlarından didərgin düşmüş vətəndaşlarımızın torpaqlarına qayıdacaqları münasibətilə başda Prezident İlham Əliyev olmaqla bu tarixi Qələbənin qazanılmasında xüsusi payı olan Silahlı Qüvvələrimizi və Vətən müharibəsində milli həmrəylik nümayiş etdirmiş xalqımızı təbrik edib.

Vətənin azadlığı, ərazi bütövlüyü uğrunda canlarını və sağlamlıqlarını fəda vermiş qəhrəmanlara və onların ailələrinə diqqət və qayğının göstərilməsini hər zaman fəaliyyətinin başlıca istiqamətlərindən birinə çevirmiş Fövqəladə Hallar Nazirliyi işçilərinin həmkarlar ittifaqı dekabrın 9-da "YAŞAT" Fonduna ittifaqın büdcəsindən əlli min manat məbləğində vəsait köçürüb.

Xatırladaq ki, Prezident İlham Əliyev dekabrın 8-də Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun- "YAŞAT" Fondunun təsis olunması ilə bağlı Fərman imzalayıb.

# *Erməni vandalizmi:* Dağıdılmış şəhər və kəndlər, tarixi abidələr, qəbiristanlıqlar





Azərbaycan Ordusunun işğaldan azad etdiyi Cəbrayıl rayonuna dekabrın 9-da mediatur təşkil olunub.

AZƏRTAC erməni barbarlığına məruz qalmış Cəbrayıl rayonuna səfərindən bəhs edən məqaləni təqdim edir.

Yolumuz işğaldan azad edilmiş Cəbrayıl rayonunadır. Avtomobillə Horadiz şəhərindən keçib Cəbrayıl rayonunun ərazisinə daxil oluruq. Qarşıda Lələtəpə yüksəkliyi görsənir. 2016-cı ilin Aprel döyüşləri zamanı Lələtəpə yüksəkliyinin işğaldan azad edilməsi ilə Cəbrayıl rayonunun işğal altında olmayan yeganə kəndi Cocuq Mərcanlının təhlükəsizliyi təmin edildi. Prezident İlham Əliyevin sərəncamları ilə Cocuq Mərcanlı kəndi yenidən quruldu və kənd sakinlərinin doğma yurda qayıdışı başlandı. Cocuq Mərcanlı uzun illərdir yurd həsrəti ilə yaşayan soydaşlarımızın doğma torpaqlarına qaytarıldığı ilk yaşayış məskəni kimi tarixə düşdü. Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin yenidən qurulması, sakinlərin doğma yurda qayıdışı onu göstərdi ki, xalqımız heç vaxt işğalla barışmayacaq, düşmən tapdağında olan bütün torpaqlarımız azad ediləcək. Azərbaycan Ordusunun 2016-cı ildə Lələtəpədə qazandığı qələbənin davamı olaraq, 2020-ci ilin sentyabrın 27-də əks-hücum əməliyyatları zamanı Cəbrayıl şəhəri və rayonun bütün kəndləri işğaldan azad edildi.

## Həm böyük sevinc, həm də kədər doğuran görüntülər

Lələtəpə yüksəkliyinin yaxınlığından ötüb vaxtilə düşmənin işğalı altında olan ərazilərə daxil oluruq. Yolboyu Ermənistan hərbçilərinin tərk etdikləri müdafiə istehkamları, düşmən ordusuna məxsus hərbi texnikaları gördükcə ordumuzla qürur duyuruq. İşğaldan azad edilən Quycaq, Şıxəli Ağalı, Karxulu, Mahmudlu, Sarıcalı, Əmirvarlı, Soltanlı kəndlərindən keçirik. Gördüklərimiz həm böyük sevinc, həm də kədər doğurur. Sevinirik, ona görə ki, 27 il həsrətində olduğumuz torpaqlarımıza qovuşmuşuq. Kədərlənirik, ona görə ki, bir vaxtlar gözəl və abad olan şəhər, kənd və qəsəbələrimizdən əsər-əlamət qalmayıb. Düşmən evləri, ictimai binaları, məktəbləri, uşaq bağçalarını, xəstəxanaları talan edib, dağıdıb və yandırıb. Hər şeyi məhv edən erməni vandalları tarixi abidələri, qəbiristanlıqları da dağıdıb.

## Xudafərin körpüsünün azad edilməsi nəinki tarixi və mədəni, eləcə də siyasi və iqtisadi hadisədir

Nəhayət, rəşadətli Azərbaycan Ordusunun oktyabrın 18-də işğaldan azad etdiyi dünya əhəmiyyətli tarix-memarlıq abidəsi olan Xudafərin körpüsünə çatırıq. Araz çayının şimal və cənub sahillərini birləşdirən 11 tağlı körpü XI-XII əsrlərdə, 15 tağlı körpü isə XIII əsrdə inşa olunub. Azərbaycan memarlığının unikal abidələrindən olan Xudafərin körpüləri Yaxın və Orta Şərq regionunun ən əzəmətli, ən məşhur körpülərindən hesab olunur. Xudafərin körpüləri Böyük İpək Yolunun inkişafında mühüm rol oynamış və hərbi-strateji cəhətdən də müstəsna əhəmiyyətə malik olmuşdur.

Ermənistan silahlı birləşmələrinin 1993-cü ildə işğal etdiyi Xudafərin körpüsünün üzərində bu gün Azərbaycan bayrağı dalğalanır. Xudafərin körpülərinin və ətraf ərazilərin işğaldan azad edilməsi nəinki tarixi və mədəni, eləcə də siyasi və iqtisadi hadisədir.

## Yaşı min illərlə ölçülən Şərq çinarları məhv edilib

Daha sonra Cəbrayıl şəhərinə yola düşürük. Şəhərin girişində erməni vandalları tərəfindən dağıdılmış qəbiristanlıq diqqətimizi çəkir. Təkcə qəbiristanlıqlar deyil, digər tarixi, mədəniyyət və memarlıq abidələri - günbəz və türbələr, məscidlər, eləcə də qədim kəhrizlər də erməni vandalizminə məruz qalıb. Cəbrayıl şəhərinin də acınacaqlı görkəmi ürək ağrıdır. Erməni hərbçiləri şəhəri tamamilə dağıdıblar.

"Dostluq" bulağından su içib, xarabalığa çevrilmiş Cəbrayıl şəhərinə daxil oluruq. Cəbrayıl sakinləri doğma şəhərlərindən danışarkən yaşı 500 il olan Şərq çinarını xoş xatirələrlə yada salırlar. Həmin çinar ağacının dibində suyu bumbuz olan qədim kəhriz də var idi. Lakin indi nə çinar ağacından, nə də kəhrizdən əsər-əlamət qalıb.

Onu da qeyd edək ki, Cəbrayıl rayonunun Hacılı kəndində yaşı 1600 və 700 il, Karxulu kəndində yaşı 200 il, Funqalı kəndində yaşı 900 il və 750 il, Horovlu və İşıqlı kəndlərində yaşı 800 il olan Şərq çinarları qorunurdu. Şəhər və kəndlərimizi, tarixi abidələrimizi dağıdan erməni vandalları təbiət abidələri sayılan Şərq çinarlarını da məhv ediblər.

## Cəbrayıl yenidən bərpa olunacaq

Erməni vandallarının Cəbrayıl rayonunda törətdiyi vəhşilikləri gördükcə nə qədər kədərlənsək də, nikbinliyə əsas var - işğaldan azad olunmuş bütün şəhər və kəndlərimiz, o cümlədən Cəbrayıl bərpa ediləcək, yenidən qurulacaq. Prezident İlham Əliyev noyabrın 16-da Cəbrayıla səfəri zamanı bu barədə deyib: "Yeni böyük baş plan tərtib ediləcək. Müvafiq göstərişlər verilib. Hər bir şəhər üçün xüsusi baş plan tərtib ediləcək. Burada bütün inzibati binalar, ictimai binalar, məktəblər, tibb ocaqları yaradılacaq. Bütün infrastruktur yaradılacaq. Küçələr salınacaq, parklar, xiyabanlar salınacaq. Bütün şəhərlərdə qələbə abidələri ucaldılacaq və həyat qayıdacaq. Yenə də Azərbaycan vətəndaşları burada yaşayacaqlar, quracaqlar, yaradacaqlar. Amma bugünkü tarix heç vaxt silinməyəcək".





# *Manlio Di STEFANO:* "Ağdamdakı dağıntıları görmək insanda çox ağır təəssüratlar yaradır"

Dekabrın 9-da İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin nümayəndə heyəti Ermənistanın işğalından azad olunmuş Ağdam şəhərinə səfər edib.

AZƏRTAC xəbər verir ki, səfərin məqsədi nümayəndə heyətini Ermənistan silahlı qüvvələrinin Ağdam şəhərində törətdiyi vəhşiliklər, cinayət izləri ilə tanış etmək olub.

İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi, Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın həmsədri Manlio Di Stefanonun rəhbərlik etdiyi nümayəndə heyətini Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə və başqaları müşayiət ediblər.

Nümayəndə heyəti Ağdam şəhərində Ermənistanın törətdiyi müharibə cinayətlərinin nəticələri ilə tanış olublar. Onlar burada ermənilərin 27 il ərzində törətdikləri vandalizmi öz gözləri ilə görüblər. Əvvəlcə qonaqlar Ağdam şəhərinin tarixi məkanlarından biri olan İmarət qəbiristanlığına gəliblər.

Burada onlara rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov tərəfindən Ağdamın tarixi, Sovet hakimiyyəti illərində rayonun sosial-iqtisadi vəziyyəti, habelə işğaldan sonrakı illərdə yaranmış mövcud vəziyyətlə bağlı məlumat verilib. Bildirilib ki, 1993-cü il iyulun 23-də mühüm coğrafi mövqedə yerləşən Ağdam rayonunun 77 faizini - 1 şəhər, 1 qəsəbə, 79 kəndi işğal edən erməni silahlı dəstələri ərazidə görünməmiş vandalizm həyata keçiriblər. Ermənilər Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Ağdamda qəbiristanlıqlar, tarixi, mədəni abidələr də erməni vandalizminə məruz qalıb. Vaxtilə Azərbaycanın ən varlı rayonu olan Ağdamın yerində indi talan edilərək viranəyə çevrilmiş xarabalıqlar qalıb.

Sonra qonaqlar Ağdam şəhəri ərazisində mövcud olmuş Çörək muzeyinin xarabalıqları ilə tanış olublar. Bildirilib ki, dünyada ikinci olan Ağdam Çörək Muzeyinin əsası 1983-cü ildə qoyulub. Həmin illərdə Ağdamda olmuş leninqradlı qonaq 1943-cü ildə yaşadığı şəhər alman faşistləri tərəfindən mühasirədə olarkən yerli əhaliyə paylanmış çörək talonlarından birini və həmin ağır günlərdən xatirə kimi saxladığı çörəyi muzeyə hədiyyə edib.

Maraqlı yaranma tarixçəsi olan Çörək muzeyinin əsası da məhz həmin ildə qoyulub. Sonrakı illərdə Çörək muzeyi üçün qədim dəyirmanın yerində muzey binası tikilib. Muzeydə 130-dan çox çörək nümunəsi qorunurdu. Ağdamın bütün tikililəri kimi, Çörək muzeyinin binası da erməni barbarları tərəfindən dağıdılıb, eksponatları isə ya məhv edilib, ya da talan olunub. Daha sonra qonaqlar nəinki Ağdamın, eləcə də Qarabağın tarixi memarlıq xüsusiyyətlərini özündə əks etdirən Cümə məscidinə gəliblər.

Diqqətə çatdırılıb ki, digər tarixi abidələrimiz kimi, 1868-ci ilin yadigarı olan Ağdam məscidi də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra talan olunub, yandırılıb. Binanın minarələrinin hələ də uçurulmamasına səbəb isə erməni işğalçılarının buradan müşahidə məntəqəsi kimi istifadə etməsi olub. Məhz Cümə məscidinin minarələrindən ətrafı asan müşahidə etmənin mümkünlüyü tarixi abidənin xilasına səbəb olub. Buna baxmayaraq, bütün müqəddəs məkanlarımız kimi, bu məscidin də ibadət zalından erməni vandalları heyvan saxlamaq üçün istifadə ediblər. Daha sonra nümayəndə heyəti Ağdam Dram Teatrının binasının qalıqları önündə rayonun işğaldan əvvəlki görüntüləri və tarixi abidələrinin fotoları olan stendlərə baxıblar.

Manlio Di Stefano jurnalistlərə müsahibəsində Ağdamda müharibənin acınacaqlı nəticələrini, dəhşətli üzünü, dağıntıları gördüklərini bildirib. "Burada gördüyüm səhnələr çox təsiredicidir və bu dağıntıları görmək insanda çox ağır təəssüratlar yaradır. Amma biz gələcəyi düşünürük və ümid edirik ki, yaxın vaxtda buralara həyat qayıdacaq", - deyə o, qeyd edib.

Vətən müharibəsi döyüşçüləri

# Tarix yazan tarixçi



**... Lal sükutdan qulaqları cingildəyir, səsini çıxarmaq, əllərini, ayaqlarını tərpətmək istəsə də bacarmırdı. Sadəcə, uzanıb qaldığı yerin sümüklərinə işləyən buz kimi soyuğunu hiss edirdi.**

Axı, nə olub mənə? Nə vaxtdan burada uzanıb qalmışam? Bəlkə yuxu görürəm? Yox-yox, heç gözüaçıq da yuxu görmək olar? Payız günəşinin qamaşdırdığı yarıyumulu gözlərini çevirib bir-birinə yapışmış kirpiklərinin arasından zor-bəla göy üzünə baxdı və yaddaşına ilişib qalmış o son mənzərəni, karvan-karvan qara bulud topalarını axtardı, amma artıq onlar səmada deyildi...

Birdən-birə həmin qara bulud topaları beynində peyda olmuş və toqquşub şimşək kimi çaxaraq, bir az öncə yaşananları gözlərinin önünə sərmişdi. Budur ətrafı atəş səsləri bürüyüb, qradlardan, toplardan, minomyotlardan açılan mərmilər ölüm qəhqəhəsi çəkərək havada uçur, fit çalaraq sağdan-soldan şığıyan güllələr torpağa sancılıb qalır.

Oğullar döyüşür, qəhrəmanlar çarpışır, “Haydı, aman verməyin düşmənə, qovun onları axıracan”, “vurun, əzin-keçin onları, irəli!!!”- deyən hayqırışlar titrədir yeri-göyü, cəsur igidlər atılır irəli, qarşıda üçrəngli, ay-ulduzlu müqəddəs bayraqlar dalğalanır...

Zaman irəlilədikcə biixtiyar gözləri yumulur, gördüyü mənzərələr sürətlə ondan uzaqlaşırdı. Birdən kiminsə onu səslədiyini eşitdi, “Elnur, Elnur”, amma dayanmadan təkrarlanan bu çağırışa hay verə bilmirdi. Sonra addım səsləri gəlirdi, onu nəyinsə üstünə qoyub tələsik hara isə aparırdılar, “Elnur ağır yaralanıb, tez olun həkimə çatdırın”, deyə təşvişli səslər cingildəyirdi qulaqlarında...

Sonra...

Daha nələr olduğunu xatırlamır... Bir də gözünü açanda görür ki, Füzulidə xəstəxanadadır...

### “Canım da, son damla qanım da Vətənimə qurbandır”

O da 44 günlük Vətən müharibəsinin mərd savaşçılarındandır. Ehtiyatda olan hərbçi, baş leytenant, Vətən müharibəsinin qazisi Elnur Bayramov “Canım da, son damla qanım da Vətənimə qurbandır” deyərək, torpaqlarımızın düşmən tapdağından azad edilməsi üçün çarpışan minlərlə qəhrəman Azərbaycan oğlundan biridir.



Bakıda dünyaya göz açan Elnuru, məktəb, tələbə yoldaşlarının hər biri gülər üzü, mehribanlığı, sakitliyi ilə xatırlayırlar. Uşaqlıqdan futbola böyük marağı olsa da, tarixə olan sevgisi onu bu sahəyə yönləndirir və 1996-cı ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsinə qəbul olur. Amma o zaman heç Elnur özü də xəyalına gətirməzdi ki, bir gün gələcək özü də Vətənimizin yeni tarixini yazan tarixçilərdən olacaq

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində şöbə müdiri olan Elnur da ehtiyatda olan zabit kimi, şanlı Azərbaycan Ordusunun sıralarına çağırılır. Oktyabrın 5-də döyüş yoluna Füzulidən başlayan taqım komandiri şanlı ordumuzun tərkibində xeyli ərazimizin yağı tapdağından azad edilməsində şücaətlə iştirak edir: “Əvvəlcə, Füzuli istiqamətində döyüşə yollandıq, oradan da Cəbrayıla yola düşdük, ermənilərin minamyot atəşi altında çox böyük çətinliklərlə Hadrut qəsəbəsinə girdik və orada yerləşdik. Sonra isə Hadrut qəsəbəsindən yavaş-yavaş Xocavəndə irəlilədik. Xocavəndin Tuğ və bir neçə digər kəndini keçərək Şuşa ətrafı kəndlərdə, Qırmızı Bazar deyilən yerin yaxınlığında mövqelərimizi möhkəmləndirdik”.



### Yarımçıq qalan yoluna davam edəcəyi, Şuşaya gedəcəyi günü səbirsizliklə gözləyir

Elnur söyləyir ki, döyüşlər zamanı qəhrəman ordumuzun hər bir üzvü yüksək əhvali-ruhiyyə ilə düşmənlə döyüşüblər və onların bütün müqavimətini qıraraq daim irəliləyiblər. Qarabağ uğrunda döyüşən hünərli oğullarımızın müqəddəs amalı qələbəni təmin etmədən geri dönməmək, bu yolda son damla qanlarınadək vuruşub düşməni darmadağın etmək olub: “Bu günlər ərzində, elə bir hal olmadı ki, azad etdiyimiz torpaqlarımızdan bir addım da olsun geri çəkilək”.

Bütün hərbçilərimiz kimi, arzusu Şuşaya ayaq basmaq olan Elnur Bayramov, təəssüf ki, bu istəyinə nail ola bilməyib. Şuşaya cəmi 15 kilometr qalmış, Qırmızı Bazarda düşmənlə savaşda minomyot qəlpələri ilə hər iki ayağından yaralanır. Yaralanandan sonra, çoxlu qan itirdiyi üçün bir müddət özündən gedən qazimizi əsgər yoldaşları döyüş meydanından çıxarırlar və sanitar maşınla Füzuliyə göndərirlər. Füzulidə əməliyyat ediləndən sonra isə Bakıya hərbi hospitala göndərilən Elnur daha bir əməliyyat keçirir. Hazırda qazimizin ayağının biri sağalıb, digəri də getdikcə yaxşılaşır. İndi Elnur Bayramov sağalaraq evə dönməyi və oğulları Naib və Nihadla birlikdə, yarımçıq qalan yoluna davam edəcəyi, Şuşaya gedəcəyi günü səbirsizliklə gözləyir.

Bəli, 44 günlük müqəddəs Vətən savaşında qəhrəman oğullarımız, soyuq səngərlərdə ölümlə burun-buruna dayandılar, amma ondan qorxmadılar, düşmənə meydan oxudular, qarşılarında diz çökdürdülər. Həyat dolu gənclərimiz əli-ayağı oynaya-oynaya, gülə-gülə yollandılar döyüşə. Canlarıyla sipər oldular vətənə, Qarabağda qanlarıyla yazdılar Azərbaycanın yeni qürurverici tarixini. Yazdılar ki, min illərin o tayında belə, övladlarımız bu günlərin əzmkar tarixini fəxarətlə vərəqləsinlər.

*Yasəmən MUSAYEVA,*
*“Azərbaycan”*

# Daha bir qrup şəhid ailəsi və erməni terrorundan əziyyət çəkən mülki şəxs üçün kiçik təsərrüfatlar yaradılıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, müharibə iştirakçılarının və erməni terrorundan əziyyət çəkən mülki şəxslərin özünüməşğulluq proqramı çərçivəsində aktivlərlə təmin edilməsi prosesini davam etdirir.



Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bu dəfə kiçik təsərrüfatlar Bərdə, Tərtər və Hacıqabulda yaradılıb. Şəhid Əzizov Ayşadın atası Qaryağdı Əzizova, şəhid Xudayar Yusifzadənin qardaşı Yusif Yusifzadəyə, şəhid Təhməzov Əlzaminin həyat yoldaşı Günay Təhməzovaya, müharibə iştirakçısının ailə üzvü Məsudə Musayevaya heyvandarlıq sahəsi üzrə aktivlər təqdim edilib.



Eyni zamanda, şəhid Alışov Samir Cəlil oğlunun ailəsinə özünüməşğulluq proqramı çərçivəsində iribuynuzlu heyvanlar verilib. Xatırladaq ki, onun və şəhid Xudayar Yusifzadənin ailələrinin ev şəraitinin ağırlığı nəzərə alınaraq, sosial tərəfdaşların dəstəyi ilə onlar üçün fərdi yaşayış evlərinin tikilməsi də qərara alınıb.



Erməni terroru nəticəsində evləri dağıdılmış, təsərrüfatları məhv edilmiş şəxslərin də sosial dəstəklə təmin edilməsi işləri davam edir. Özünüməşğulluq proqramı çərçivəsində Tərtər və Bərdədə Gülbadam Xəlilova, Fəxrəddin Salayev və Firuzə Məmmədovaya heyvandarlıq təsərrüfatlarını yaratmaq üçün iribuynuzlu heyvanlar verilib.







# Həmişə qaliblər cərgəsində olasınız

## Ön cəbhəyə könüllü gedən oğulların Qələbəyə inamları böyük idi



**Ataların “Dövlətdə dəvə, övladda nəvə” misalı heç də ötəri yerə yaranmayıb. Bunun arxasında böyük bir hikmət var. Babanın öz nəvəsindən qürurla söz açması isə özgə bir hissdir. Elə bu məqaləni də həmin hisslə qələmə alıram.**

Ailəmizin ilk övladı olan Aida Kəlbəcərdə orta məktəbi əla qiymətlərlə bitirib o zamankı M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutuna daxil oldu. Ali təhsil aldığı müddətdə ailəmizin razılığı ilə ixtisasca mühəndis olan Bahadur Hadı oğlu Hüseynovla ailə həyatı qurdu. 1993-cü ilin 21 aprelində dünyaya gələn ilk ovladına da babası Hadının adını qoydular.

Bəri başdan deyim ki, bu, həmin Hadıdır ki, Vətən müharibəsində o da kənarda qalmayaraq ön cəbhədə, düşmənlə üz-üzə döyüşən ordumuzun sıralarındadır.

Hadının necə döyüşməsi haqqında ətraflı söz açmağa ehtiyac duymuram. Çünki böyük Qələbəmizdə Ali Baş Komandan İlham Əliyevin dəmir iradəsi, qətiyyəti ilə düşmənə layiqli cavab verən Azərbaycan Ordusunun sıralarında olanların hər birinin payı var, o cümlədən nəvəm Hadı Hüseynzadənin də.

Hadının atası Bahadur Rusiyanın Kaluqa şəhərində əsgərliyini keçirdiyindən, hələ sovet dövləti dağılmamışdan orada qalıb yaşamağa qərar verdi. Hadıdan sonra onların Vüqar adlı bir övladları da dünyaya göz açdı. Hər iki qardaş bağçada, körpələr evində rus uşaqları ilə birgə böyüyüb məktəb yaşına çatsalar da, doğma Azərbaycana Vətən sevgiləri günbəgün artırdı. Hər iki qardaş Kaluqada orta məktəbi bitirib Moskva Humanitar İqtisadiyyat Universitetinə qəbul oldular: Hadı Hüquqşünas, Vüqar isə İnşaat fakültəsinə.

2012-ci ildə universiteti bitirdikdən sonra Kaluqa şəhərində inşaat briqadası yaradaraq ona rəhbərlik edən Hadının ürəyi doğma Kəlbəcərinə qırılmaz tellərlə bağlı olduğunu son günlər daha çox hiss etdikcə qürur duydum.

Sovet dövlətinin dağılmasından istifadə edən mənfur qonşularımız 1987-1988-ci illərdən etibarən Dağlıq Qarabağı və ona bitişik yeddi rayonu, daha doğrusu, Azərbaycanın 20 faiz torpaqlarını zəbt etdilər. Bu vəziyyət 27 ildən artıq davam etdiyindən, 23 yaşlı Hadı da dərindən düşünməli oldu. O, Vətənə olan övladlıq borcunu qaytarmaq istədi. Beləliklə də işini, sakit, rahat həyatını kənara ataraq həqiqi hərbi xidmətə getmək üçün Azərbaycana qayıtdı. Həqiqi hərbi xidmətinə 2015-ci ildə Naxçıvan Muxtar Respublikasında başladı. 2016-cı ildə tərxis olunaraq anadan olduğu Samux rayonunun Sərkar kəndinə qayıtdı. Elindən-obasından olan qonşu qızı ilə də ailə həyatı qurdu. Hələ bir yaşı tamam olmayan Ləman adlı bir qız balası var. Qəhrəman döyüşçü atanın görüşünə tələsən oğlu da tezliklə dünyaya göz açacaq. İnşallah, onun da ayağı ruzi-bərəkətli, düşərli olar.

Hadı Hüseynzadə Moskva Humanitar Universitetin Hüquq fakültəsini bitirdiyindən, Vətənə qayıtdıqdan sonra işləmək üçün respublikanın ədliyyə orqanlarına müraciət etdi. Müsabiqə yolu ilə biliyi yoxlanıldı. Gəncə şəhər Kəpəz Rayon Məhkəməsinə hakim köməkçisi kimi işə götürüldü. 2020-ci il Vətən müharibəsi başlayandan bir həftə əvvəl isə məhkəmənin baş məsləhətçisi vəzifəsinə irəli çəkildi.

Vətən müharibəsinə qəlbinin hökmü, ürəyinin səsi ilə getdiyindən, Tanrı onun yolunu anasının, babasının doğulduğu torpaqlar istiqamətinə saldı. Onda olan həvəs, torpaq, Vətən sevgisi birə-beş özünü göstərdi: komandirləri onu dəyanətli, cəsur döyüşçülərdən biri kimi tanıdılar.

Alqış gəncliyimizə, müzəffər qalib ordumuza, Ali Baş Komandanımıza! Gecəli-gündüzlü arxasını qartallı dağların əlçatmaz, quşsəkməz qayalarına söykəyib, yorğanını buludlar, döşəyini vətən torpağı hesab edən nəvəm Hadı kimi vətənsevər gənclərin qoruduğu ərazilərdə - dağlarda dünyaya göz açan körpələrin də mayası o sudan, o vətən torpağından, o havadan yoğrulduğundan, inanmalıyıq ki, Ülfətlər, Mübarizlər, Poladlar, Sərdarlar, Şahlarlar yetirmiş Azərbaycanda XXI əsrə layiq hərbi texnikaların dilini bilən, beşinci nəsil hərbi sirlərə yiyələnmiş dünyanı heyrətə gətirənlər doğulmaqdadır.

İşğalçı Ermənistanın baş naziri noyabr ayının 10-da təslim aktına imza atsa da, Hadı kimi övladlar hələ onlara tapşırılan vəzifələrin içrası ilə məşğuldurlar. İndi onlar düşmənlə sərhədlərimizi müəyyənləşdirir, torpaqlarımıza basdırılmış minaları təmizləyir, yandırılmış meşələri, yaşayış evlərini söndürürlər

Bunu da deməliyəm ki, haqqında ürəklə söz açdığım Hadı da düşmən gülləsindən yayınmayıb. Sinəsini irəli verən döyüşçü dostlarına arxa-dayaq olub. Bunu bizdən, ailədən, qohum-əqrabadan gizlətməyə çalışıb. Düşmən qabağında olan hər bir balamız əzizdir Hadı kimi. Tezliklə sağalıb döyüşçü dostlarının yanına qayıdacağını deyib.

Yolunuz açıq olsun, igid balalarımız. Həmişə qaliblər cərgəsində olasınız. Hadının Xeyrənsə nənəsi ömrünün yüzünü çoxdan keçib. Kəlbəcərdə ən uzunömürlü hesab edilir. Kəlbəcərə dönmək arzusu ilə Ali Baş Komandan İlham Əliyevə və ailəsinə, balalarına, eləcə də bütün əsgər və komandirlərimizə dua edir. Ata-anan, nənə-babanın 85-108 yaşlı anaları yolunuzu gözləyir. Körpə Ləmanın isə əsgər şəklinə baxıb qığıldanır, gülümsəyir

*Əli ABDULLAYEV,*
*Kəlbəcər rayonu, ağsaqqal*

# Ağdam rayonunun Mirəşelli kəndindəki Şəmsi kəhrizində bərpa-təmir işlərinə başlanılıb



Müharibə bitdikdən sonra Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Azərbaycan nümayəndəliyinin kankanları (kəhriz ustaları) Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) maliyyə dəstəyi ilə təşkilatın həyata keçirdiyi “Azərbaycanda kəhriz su sistemlərinin bərpası vasitəsilə məcburi köçkünlərin məskunlaşdığı ərazilərdə kənd yerlərinin kompleks inkişafı” layihəsi çərçivəsində Ağdam rayonunun Mirəşelli kəndinin ərazisindəki Şəmsi kəhrizində yarımçıq qalmış bərpa-təmir işlərinə başlayıb.



Nümayəndəlikdən AZƏRTAC-a bildiriblər ki, dörd illik layihə ənənəvi və dayanıqlı su təchizatı sistemi olan 40 kəhrizin bərpası vasitəsilə təxminən 8 mindən çox ailəyə təhlükəsiz və davamlı su təminatı məqsədini daşıyır.

Layihənin ümumi məqsədi Azərbaycanda kənd təsərrüfatı icmalarının enerjisiz su təchizatını təmin etməklə kənd təsərrüfatı məhsuldarlığını və yaşayış imkanlarını artırmaqla məcburi iqtisadi miqrasiyanın qarşısının alınmasına töhfə verməkdir. Kəhrizlərin bərpası ilə yanaşı, layihə gender, idarəetmə və ətraf mühitin davamlılığı kimi məsələlərə xüsusi diqqət yetirərək icma tərəfindən idarə olunan bir yanaşmanı tətbiq etməyə davam edir.

Bu layihə üç fərqli, lakin sıx əlaqəli yanaşma çərçivəsində həyata keçirilir. Bunlar kəhrizlərin bərpası və icmaların və kankanların bacarıqlarının artırılmasıdır.



Biz birlikdə güclüyük!

# Yoluxmanın yüksək həddi sərt karantinin tətbiqini şərtləndirdi

*Əvvəli 1-ci səh.*

Ölkəmizdəki epidemioloji vəziyyətin təhlilinə əsasən, Nazirlər Kabineti yanında Operativ Qərargah bir sıra yeni qərarlar qəbul edib. Qurumdan bildirilir ki, pandemiyanın bu mərhələsində virusa yoluxmanın yüksək həddi müxtəlif ölkələrdə yenidən sərt karantin tədbirlərinin tətbiq olunmasını şərtləndirib. Buna görə də Azərbaycanda son aylarda yaşanan yüksək yoluxma səviyyəsi nəzərə alınaraq, virusun yayılmasının qarşısının alınması məqsədi ilə ölkə ərazisində sərtləşdirilmiş karantin tədbirlərinin həyata keçirilməsinə qərar verilib.

## Xüsusi karantin rejiminin müddəti uzadıldı

Qərara əsasən, ölkə üzrə xüsusi karantin rejiminin müddəti gələn ilin 31 yanvarınadək uzadılıb. Eyni zamanda bu il dekabrın 14-dən 2021-ci ilin 18 yanvarınadək bütün ölkə üzrə sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq ediləcək.

Xüsusi karantin rejiminin sərtləşdirilməsindən irəli gələrək yuxarıda sözügedən tarixlərdə ölkənin bütün ərazisində Nazirlər Kabinetinin müvafiq qərarı ilə müəyyən edilmiş iş və xidmət sahələri istisna olmaqla, digər sahələrdə iş və xidmətlər dayandırılır. Bütün ticarət obyektlərinə, ictimai iaşə obyektlərinə, o cümlədən restoran, kafe və çay evlərinə müştərilərə yalnız çatdırma xidmətlərinin göstərilməsinə və ya onlayn satışa icazə veriləcək.

Dekabrın 14-dən yanvarın 18-dək operativ və xüsusi təyinatlı nəqliyyat vasitələrinin, habelə yükdaşıyan avtomobillərin və Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin nəqliyyat vasitələrinin hərəkəti istisna olmaqla, Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan şəhərlərinin və Abşeron rayonunun ərazisinə, eləcə də Lənkəran, Masallı, Cəlilabad, Şəki, Zaqatala, Quba, Xaçmaz, Yevlax, Bərdə, Biləsuvar və İsmayıllı rayonlarının mərkəzlərinə (kənd və qəsəbələr istisna olmaqla) giriş-çıxış dayandırılacaq.

Eyni zamanda sözügedən şəhər və rayonların ərazisində hərəkət məhdudiyyəti tətbiq edilir. Nazirlər Kabinetinin qərarı əsasında müəyyən edilən siyahı üzrə müvafiq qurumlarda çalışan şəxslər xidməti vəsiqə əsasında, eyni zamanda qərarla müəyyən edilmiş digər təşkilatların və qurumların işçiləri onlar barədə məlumatlar işəgötürən tərəfindən elektron imzadan istifadə edilməklə "icaze.e-gov.az" portalına daxil edildikdən sonra yuxarıda qeyd olunan ərazilərdə hərəkət edə biləcəklər.

Müvafiq dövlət qurumları və özəl hüquqi şəxslərin əməkdaşları, habelə bəzi könüllülər təşkilatlarının üzvləri barədə məlumatlar "icaze.e-gov.az" portalına 9 dekabrdan etibarən daxil edilməlidir.

Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan şəhərlərinin və Abşeron rayonunun ərazisində, eləcə də Lənkəran, Masallı, Cəlilabad, Şəki, Zaqatala, Quba, Xaçmaz, Yevlax, Bərdə, Biləsuvar və İsmayıllı rayon mərkəzlərində (kənd və qəsəbələr istisna olmaqla) bütün digər şəxslərin yaşayış yerini və olduğu yeri tərk etmələrinə SMS-icazə sistemi və ya Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin 102 Xidməti - Zəng Mərkəzi vasitəsi ilə icazə veriləcək.

## SMS-icazə sistemi aşağıdakı hallarda tətbiq ediləcək

SMS-icazə sistemi təxirəsalınmaz tibbi zərurətlə və ya qrafik üzrə müalicə almaqla əlaqədar yaşayış yerini və olduğu yeri tərk etmək üçün veriləcək. İcazənin müddəti rayon və şəhər daxilində 3 saatdır, rayonlar və şəhərlərarası hərəkət zərurəti yarandıqda isə yaşadığı ünvanla getməli olduğu ünvan arasında məsafə və müalicə prosedurunun müddəti nəzərə alınır, geri qayıtma müddəti həkim tərəfindən verilən arayışla müəyyən edilir və zərurət olduqda polis əməkdaşlarına təqdim edilir.

Ərzaq və digər gündəlik tələbat mallarının və dərman vasitələrinin alınması, dövlət xidmətlərinin, bank, poçt fəaliyyətinin davam etdirilməsinə icazə verilən iş və xidmət sahələrində göstərilən digər xidmətlərdən istifadə edilməsi zərurəti, həmçinin açıq havada vaxtın keçirilməsi ilə əlaqədar yaşayış yerini və olduğu yeri tərk etmək üçün icazə 3 saat müddətinə gündə 1 dəfə veriləcək. Dövlət xidmətlərindən istifadə edilməsi zərurəti ilə əlaqədar yaşayış yerini və olduğu yeri tərk edən şəxslər üçün geri qayıtma müddəti müvafiq dövlət qurumu tərəfindən verilən arayışla müəyyən ediləcək.

Yaxın qohumunun dəfnində iştirakla əlaqədar yaşayış yerini və olduğu yeri tərk etmək üçün isə hər bir şəxs Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin 102 Xidməti - Zəng Mərkəzi vasitəsilə icazə almalıdır.

## Təxminən 600 min nəfərə 190 manat birdəfəlik maddi yardım göstəriləcək

Beynəlxalq və ölkədaxili uçuşlara müvafiq reys üçün bileti olan şəxslərin yaşadıqları və olduqları yerdən hərəkətinə onların biletləri əsasında, dövlət sərhədindən müvafiq qaydada ölkəyə daxil olan şəxslərin yaşadıqları və olduqları yerə gəlməsinə isə onların pasportuna vurulmuş ştamp əsasında yol verilir.

Bakı Metropolitenində sərnişindaşımanın fəaliyyətinə tətbiq olunan məhdudiyyət, eləcə də bütün ölkə ərazisində şənbə və bazar günləri ictimai nəqliyyatın fəaliyyətinə tətbiq olunan məhdudiyyət də gələn ilin 31 yanvarınadək uzadılır.

Tətbiq olunan məhdudiyyətlərin iqtisadi fəallığa təsiri nəzərə alınaraq əvvəlki sərtləşdirilmiş karantin rejimi zamanı müəyyən edilmiş ehtiyacı olan təqribən 600 min nəfərə 190 manat birdəfəlik maddi yardım göstəriləcəkdir. Eyni zamanda zərərçəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlara yardım edilməsi nəzərdə tutulur.

Xatırladırıq ki, xüsusi karantin rejiminin qüvvədə olduğu müddətdə ölkə üzrə bütün qapalı və açıq məkanlarda müvafiq qaydada tibbi maskalardan istifadə məcburi hesab olunur.

## Bu bəla nəfəs qədər yaxınımızdadır

Operativ Qərargah virusun geniş yayılmasının qarşısının alınması məqsədi ilə hamını dövlət tərəfindən görülən tədbirlərə dəstək göstərməyə, özünün və ailə üzvlərinin sağlamlığı naminə COVID-19 virusu ilə mübarizədə karantin tələblərinə ciddi riayət etməyə çağırır.

Hazırkı dövrdə ciddi zərurət yaranmadıqda ictimai yerlərdə olmamaq, digər şəxslərlə yaxın təmaslardan yayınmaq, qapalı və açıq məkanlarda sosial məsafəyə əməl etmək, tibbi maska və digər qoruyucu vasitələrdən ictifadə etmək zəruridir. Bildirilir ki, xəstəliyin ilkin əlamətlərini hiss etdikdə özünütəcrid tələblərinə ciddi riayət etmək, zəruri müalicə tədbirlərinin həyata keçirilməsi olduqca önəmlidir.

TƏBİB-in koronavirus infeksiyası ilə bağlı əhaliyə müraciətində deyilir ki, bu günlərdə virusla mübarizədə cəmiyyət olaraq ən böyük fədakarlıq sınağından birlikdə keçməyə çalışmalıyıq. Hər gün doğmalarımızın, əzizlərimizin də arasında olduğu minlərlə insanın virusa yoluxması bu bəlanı nəfəs qədər yaxınımızda hiss etməyimizə səbəb olur.

Virusla ən yaxşı və ilkin mübarizə, eyni zamanda onun təsir gücünü azaldacaq tədbir özümüzü və ətrafımızı qorumaqdan başlayır. Hər kəs öz evinin qoruyucu qəhrəmanı olmaqla bütün cəmiyyətin qəhrəmanına çevrilə bilər.

Vacib iş olmadığı halda evdə qalaraq COVID-19 virusunun yayılma tempini zəiflətmək, dövlətimizə və həkimlərimizə ən böyük mənəvi dəstək olar. Birlikdə olduğumuz zaman öhdəsindən gələ bilməyəcəyimiz heç bir maneə yoxdur.

Bəli, mütəxəssislərin də bildirdiyi kimi, bəşəriyyəti təhdid edən bu təhlükəyə qalib gəlmək öz əlimizdədir. Karantin qaydalarının tələblərinə ciddi əməl edək, maska taxaq və özümüzü sosial izolyasiya edək.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***




# Koronavirusa daha 4403 nəfər yoluxub, 2919 nəfər isə sağalıb




**Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 4403 yoluxma faktı qeydə alınıb, 2919 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 42 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 158 min 555 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 96 min 330 nəfər müalicə olunaraq sağalıb, 1755 nəfər vəfat edib. Aktiv xəstə sayı 60470 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 884 min 578 test aparılıb. Dünənki test sayı isə 19066-dır.

# Karantin rejiminin tələblərini pozan şəxslər müvafiq inzibati və ya cinayət məsuliyyətinə cəlb ediləcəklər

Koronavirus infeksiyasının ölkəmizdə yayılmasının qarşısının alınması və onun neqativ təsirlərinin aradan qaldırılması ilə bağlı ölkəmizdə genişmiqyaslı kompleks siyasi, iqtisadi və sosial tədbirlər həyata keçirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda deyilir: "Təəssüflə bildiririk ki, koronavirus infeksiyasının yayılmasının qarşının alınması məqsədilə ölkəmizdə elan edilən xüsusi karantin rejiminin müxtəlif yollarla pozulması hallarına rast gəlinir.

Məsələnin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikasının Baş Prokurorluğu xəbərdarlıq edir ki, karantin rejiminin tələblərini pozan şəxslərin müvafiq inzibati və ya cinayət məsuliyyətinə cəlb edilməsi təmin olunacaq".

Baş Prokurorluğun Mətbuat xidməti qeyd olunan məsələ ilə bağlı maarifləndirici video hazırlayıb.

# Füzuli rayonunda karantin rejiminin pozulması ilə bağlı cinayət işi başlanıb

Füzuli Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, rayon sakini 1980-ci il təvəllüdlü Əliyev Barat Əlyar oğlu COVID-19 virusu ilə bağlı verdiyi testin nəticəsinin pozitiv olmasını bilə-bilə xüsusi karantin rejiminə əməl edərək həmin müddəti evdə keçirməli olduğu halda, yaşadığı evi qanunsuz tərk edərək rayonun Bala Bəhmənli kəndi ərazisində icarə əsasında işlətdiyi apteke gedib ayrı-ayrı şəxslərə dərman satışını həyata keçirməklə epidemiya əleyhinə, eləcə də karantin rejimini kobud surətdə pozub yeni növ koronavirus infeksiyasının yayılması üçün real təhlükə yaradıb.

Faktla bağlı Füzuli Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 139-1.1-ci (epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanaraq istintaqın aparılması üçün aidiyyəti üzrə Füzuli Rayon Polis Şöbəsinə göndərilib.

Hazırda iş üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.


## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 23 noyabr 2020-ci il tarixdə Dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə Bakı Metropoliteninin III yeni ("Bənövşəyi") xəttinə aid "B-3" stansiyasında quraşdırılmış elektromexanika avadanlıqlarının avtomatikası və telemexanikası işləri üçün Scada sisteminə aid serverlərin alınması və quraşdırılması işlərinin satın alınmasına dair açıq tender (Elektron) üsulu ilə müsabiqə keçirilmiş və "AİSTGROUP" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 149411,18 (yüz qırx doqquz min dörd yüz on bir manat 18 qəpik) manat (ƏDV daxil) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 07 avqust 2020-ci il tarixdə vahid satınalma Portalında elan edilmiş "Elektrik xətt təsərrüfatına tələb olunan müxtəlif güclü elektrik tənzimləyicilərin və qida qurğularının (UPS-lərin) satın alınması" üzrə keçirilmiş açıq tender prosedurunun qalibi "Aktif Elektrik" MMC müəyyən edilmişdir.

"Aztelekom" MMC ilə "Aktif Elektrik" MMC arasında 23 noyabr 2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya Publik Hüquqi Şəxsi "Kompüter və avadanlıqlar"ın *kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan təşkilatlar +994505151512 telefon nömrəsi ilə əlaqə saxlaya bilər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 14.12.2020-ci il saat 12:00-dək qəbul olunur.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Abşeron "DOST" Mərkəzinin əsaslı təmir işlərinin satın alınması üzrə keçirilən *təkliflər sorğusuna dəvət edir*

Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**İştirak haqqı: 200 (iki yüz) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

**İstirak haqqı heç bir halda geri qaytarılmır.**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər **15 dekabr 2020-ci il saat 18:00-dək** qəbul olunur.

İddiaçıların təklifləri **16 dekabr 2020-ci il saat 11:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Sosial Xidmətlər Agentliyi" Publik Hüquqi Şəxsin tabeliyindəki sosial xidmət müəssisələri üçün mətbəə mallarının satın alınması üzrə ƏƏSMN-in tabeliyində "Sosial Xidmətlər Agentliyi" Publik Hüquqi Şəxsi ilə "TUNA" QSC arasında 04 dekabr 2020-ci ildə müqavilə imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən "Bir sıra təhsil müəssisələrinin təmir-tikinti işlərinin satın alınması" üzrə 12 noyabr 2020-ci il tarixdə təkliflər sorğusu üsulu ilə keçirilmiş satınalma prosedurunun nəticələrinə görə LOT-1 üzrə "ARX-AYN" MMC, LOT-2 üzrə "Alıbəyli Şirkəti" MMC, LOT-3 üzrə "Art proje" MMC, LOT-4 və LOT-15 üzrə "İnşaat Serviz-X" MMC, LOT-5 və LOT-9 üzrə "İdeal TM" MMC, LOT-6 üzrə "Araz İnşaatçı" MMC, LOT-7 üzrə "KLF GROUP" MMC, LOT-8 üzrə "Litosfer" MMC, LOT-10 üzrə "Azinvest İnşaat" MMC, LOT-11 üzrə "Hidro Construction" MMC, LOT-12 üzrə "Yeni Memar" MMC, LOT-13 üzrə "Uniko" MMC, LOT-14 üzrə "Riviera" MMC qalib elan edilmişdir.

*Tender komissiyası*

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən e-tender.gov.az saytında 11.11.2020-ci il tarixdə elan edilmiş "Sənədlərin çeşidlənməsi, tikilməsi və cildlənməsi" işləri üzrə keçirilən kotirovka prosedurunun qalibi fərdi sahibkar Firavan Rizvan oğlu Hacıyev müəyyən edilmişdir.

"Azərpoçt" MMC və fərdi sahibkar Firavan Rizvan oğlu Hacıyev arasında 09.12.2020-ci il tarixdə kotirovka müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## "Azərsu" ASC
## daxili vəsaiti hesabına ultra süzgəc modullarının satın alınması məqsədilə
### *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs - Hikmət Qasımov, telefon: (012) 431-47-67/2249) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanıb möhürlənmiş kotirovka təkliflərini **14 dekabr 2020-ci il saat 12:00-dan** gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri Bakı şəhəri, Moskva prospekti, 67 nömrəli ünvanda **15 dekabr 2020-ci il saat 12:00-da** açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılışı prosedurunda iştirak edə bilərlər.

*Tender komissiyası*

## "Azərsu" ASC
## daxili vəsaiti hesabına 2021-ci ilin tələbatına əsasən qaynaq çubuqlarının satın alınması məqsədilə
### *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs - Hikmət Qasımov, telefon: (012) 431-47-67/2249) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanıb möhürlənmiş kotirovka təkliflərini **14 dekabr 2020-ci il saat 13:00-dan** gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri Bakı şəhəri, Moskva prospekti, 67 nömrəli ünvanda **15 dekabr 2020-ci il saat 13:00-da** açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılışı prosedurunda iştirak edə bilərlər.

*Tender komissiyası*

## BİLDİRİŞ

"Azərişıq" ASC tərəfindən keçirilmiş Şəki və Oğuz rayonları ərazisində yaradılacaq aqroparkın suvarma suyu ilə təmin edilməsi. Elektrik təchizatı (Şəki ərazisi üzrə) işlərinin Təkliflər sorğusu üsulu ilə satın alınmasına dair müsabiqədə "Dizayn İnşaat Qroup" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 09.12.2020-ci il tarixdə ƏDV daxil 8 097 776,45 (səkkiz milyon doxsan yeddi min yeddi yüz yetmiş altı manat 45 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 11.12.2020-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## BİLDİRİŞ

"Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" Publik Hüquqi Şəxsi tərəfindən "Nəqliyyat vasitələrinin əsaslı təmir işlərinin satın alınması" məqsədilə elan edilmiş kotirovka sorğusunun qalibi "Neodent S" Məhdud Məsuliyyəti Cəmiyyəti olmuşdur.

Qalib təşkilatla müvafiq müqavilə bağlanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən avtomobillərin satın alınması üçün keçirilmiş açıq tenderdə "Azərmaş Group" MMC qalib olmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqavilələri bağlanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

"Azərpoçt" MMC-nin "Azərbaycan" qəzetinin 12 sentyabr 2020-ci il tarixli 184 (8500) saylı nömrəsində və vahid satınalma Portalında elan olunmuş "Zirehli avtonəqliyyat vasitələrinin satın alınması"na dair açıq tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 33.1-ci maddəsinə əsasən ləğv olunmuşdur.

*Tender komissiyası*

## BİLDİRİŞ

"Azərişıq" ASC tərəfindən 06.11.2020-ci il tarixdə "Xüsusi geyimlər və fərdi mühafizə vasitələrinin" satın alınması məqsədilə elan edilmiş açıq tender üzrə müraciət edən iddiaçıların sayı üçdən az olduğu üçün Tender komissiyasının qərarı ilə tenderin davamından imtina olunur.

*Tender komissiyası*

## BİLDİRİŞ

"Azərişıq" ASC tərəfindən keçirilmiş Ələt azad iqtisadi zonası ərazisində ilkin elektrik işlərinin layihələndirilməsi və aparılması işlərinin Təkliflər sorğusu üsulu ilə satın alınmasına dair müsabiqədə "AZCONSTRUCTION" QSC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 09.12.2020-ci il tarixdə ƏDV daxil 9 984 985,76 (doqquz milyon doqquz yüz səksən dörd min doqquz yüz səksən beş manat 76 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Milli Məclisin deputatı Rəşad Mahmudova anası

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatları Ağalar Vəliyev və Hacı Madər Musayev Qafqaz Müsəlmanları İdarəsinin sədri Hacı Allahşükür Paşazadəyə əzizi

**ƏZİZAĞA ŞIXƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Ağalar Vəliyev Milli Məclisin deputatı Rəşad Mahmudova anası

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov Milli Məclisin deputatı, Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudova anası

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı Tamam Cəfərova Milli Məclisin deputatı Rəşad Mahmudova anası

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi aparat rəhbərinin müavini Şahin Rüstəmova əzizi

**MEHMAN MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova və komitənin üzvləri Milli Məclisin deputatı Rəşad Mahmudova anası

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin deputatı Rəşad Mahmudova anası

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə atası

**HACI BÖYÜKAĞA QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadəyə əzizi

**ƏZİZAĞA ŞIXƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudova anası

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə atası

**HACI BÖYÜKAĞA QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Milli Məclisin deputatı Rəşad Mahmudova anası

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Seymur Orucova əzizi

**ARİF ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Şeyxülislam Hacı Allahşükür Paşazadəyə və Cavanşir Paşazadəyə əzizləri

**ƏZİZAĞA ŞIXƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi Milli Məclisin deputatı Rəşad Mahmudova anası

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadəyə və Milli Məclisin deputatı Cavanşir Paşazadəyə əzizləri

**ƏZİZAĞA ŞIXƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ənvər Seyidov ailəsi ilə birlikdə Elçin İbrahimova həyat yoldaşı

**AİDA SABİR QIZI İBRAHİMOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Professor Qəzənfər Paşayev ailəsi ilə birlikdə Milli Məclisin deputatı Rəşad Mahmudova anası

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin 1980-ci il məzunları tələbə yoldaşları

**ADİL HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Respublika Dəri-Zöhrəvi Mərkəzin rəhbərliyi və kollektivi mərkəzin həkimi Rəxşəndə və İlal Əhmədovlara anaları

**ELMİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucova əzizi

**ARİF ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Rəşad Mahmudova anası

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucova əzizi

**ARİF ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarov və məhkəmənin kollektivi məhkəmənin hakimi İlkin Rüstəmliyə əzizi

**MEHMAN MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

YAP Goranboy rayon təşkilatından Elçin İsmayılov Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə atası

**HACI BÖYÜKAĞA QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7458
Sifariş 2797
Qiyməti 40 qəpik